## "Problem daha yaxşı istiqamətə yönəlib"

Bakı məktəblərində koronavirusla bağlı vəziyyət normallaşır



**"Məktəblərdə koronavirusa yoluxma halları ilə bağlı məsələ lokal şəkildə həll olunur".**

Bunu Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva jurnalistlərə açıqlamasında deyib.

İdarə müdiri bildirib ki, harada ciddi problem varsa, Gigiyena və Epidemiologiya Mərkəzinin qərarı ilə həmin yerdə ya məktəb, ya da sinif distant təhsilə keçir...

(səh.5)

## Bərdədə ana və iki yaşlı oğlu dəm qazından öldü



**Bərdədə ana və azyaşlı övladı dəm qazından zəhərlənərək ölüb.**

Hadisə dünən şəhərin Sənaye küçəsindəki beşmərtəbəli yaşayış binasında baş verib.

Belə ki, Yevlax rayon sakini, 1995-ci il təvəllüdlü Ayşən Yusifova Eldəniz qızı və övladı 2019-cu il təvəllüdlü Tunar Əliyev Vüsal oğlu Bərdə rayonunda yaşadıqları evdə dəm qazından boğularaq ölüblər.

*Faktla bağlı Bərdə Rayon Prokurorluğunda araşdırma aparılır.*



## "Təhsil kreditlərini almaq çətin olacaq"

Kamran Əsədov: "Demək olar ki, heç bir güzəşt yoxdur və onu almaq əlçatan deyil"

**Bu il noyabrın 25-dən təhsil-tələbə krediti üçün müraciətlərin qəbuluna başlanılıb. Bu barədə ölkə ictimaiyyətinə Təhsil Nazirliyindən məlumat verilib.**

Təhsil-tələbə kreditinin ayrılmasında məqsəd təhsilin hamı, xüsusilə də əhalinin aztəminatlı təbəqələrindən olan şəxslər üçün əlçatanlığının təmin edilməsi, təhsildə bərabər imkanların yaradılması və təhsilin əhatə dairəsinin genişləndirilməsidir.

Bu kredit dövlət dəstəyi ilə çox kiçik faizlərlə və uzun müddətə (təhsil səviyyəsindən asılı olaraq 15-22 il) verilir.

(səh.6)


№ 216 (5498), 2021-ci il

Qiymətı 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 26 noyabr 2021-ci il (cümə)




## "Ermənistanın atəşkəsə tam əməl etməsi vacibdir"

Bu fikirlər Türkiyə Milli Təhlükəsizlik Şurasının iclasında səsləndirilib

**Ermənistanın ona uzadılan sülh əlini fürsət hesab etməsi, atəşkəs rejiminə tam əməl etməsi və əməkdaşlıq etməsi vacibdir.**

"Report" xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə keçirilən Milli Təhlükəsizlik Şurasının iclasının yekun açıqlamasında deyilir.

İclasda qeyd edilib: "Biz qonşularımız arasında mübahisələrin sülh yolu ilə, beynəlxalq hüquq normaları və ölkələrin ərazi bütövlüyünə hörmət çərçivəsində həllinin tərəfdarıyıq".

*Qeyd edək ki, 3 saatadək davam edən Milli Təhlükəsizlik Şurasının iclasında Cənubi Qafqazla yanaşı, Balkan ölkələri, Egey, Qara dəniz, Aralıq dənizi, Yunanıstan və Suriyadakı son vəziyyətlə bağlı məsələlər müzakirə edilib.*

## İsrail şirkətlərinin Ağdamın bərpasında iştirakı nəzərdən keçirilir



**"Ağdamda gələcək üçün ümidverici bir mənzərə gördük".**

APA-nın xəbərinə görə, bunu İsrailin Azərbaycandakı səfiri Corc Dik "Twitter"də bildirib.

Səfir İsraildən gələn iş adamlarından ibarət nümayəndə heyəti ilə Ağdama səfər etdiyini vurğulayıb.

"Biz dağılmış bir şəhər gördük, lakin eyni zamanda, gələcək üçün ümidverici bir mənzərə də gördük. Ümid edirik ki, Ağdam yenidən çiçəklənəcək və İsrail şirkətləri bu işdə tərəfdaş olacaqlar", - İsrail diplomatı qeyd edib.

# Sərhəddə yenə hərəkətlilik var

## Soçi görüşü öncəsi ermənilərin təxribatları gözlənilir



"Rusiyaya bağlı qüvvələr Moskvanın maraqları təmin olunmadıqda, dərhal meydana çıxırlar"

**Soçi və qarşıdan gələn Brüssel görüşləri öncəsi Ermənistan tərəfinin növbəti təxribatları baş verə bilər. Erməni mediasında bu iddiaları gücləndirən informasiyalar yayılmaqdadır. Eyni zamanda ölkəmizdə də bir çox ekspert nəzərdə tutulan görüşlərin nəticə verməməsi üçün müəyyən dairələrin yenidən təxribat düyməsinə basacağını istisna etmirlər.**

Məsələn, hərbi ekspert Ədalət Verdiyev Ermənistan ordusunda təxribata hazırlıq prosesi getdiyini söyləyib. Onun fikrincə, hər dəfə danışıqlar prosesi çərçivəsində erməni tərəfi təxribat törətməklə danışıqlara zərbə vurur. Ekspert xatırladıb ki, 10 Noyabr bəyanatından sonra da bu təxribatlar davam etdi: "Soçi görüşü ərəfəsində ermənilər yeni təxribat törədə bilərlər: "Ermənistan ordusunda təxribata hazırlıq prosesi gedir. Laçın və Kəlbəcərin Ermənistanla sərhədində yerləşən hərbi hissələr 1 saylı döyüş hazırlığı vəziyyətinə gətirilib. Paşinyanın Soçi səfəri zamanı ona müxalif generalların növbəti dəfə atəşkəsi pozmaq cəhdi istisna edilmir".

Ermənistanın "Hraparak" qəzeti də Azərbaycanla sərhəddə "canlanmadan" bəhs edib.

(səh.3)



## "Mən təsdiqləyə bilərəm..."

Mariya Zaxarova: "Ermənistan Yerevanla Ankara arasında münasibətlərin normallaşması üçün Moskvaya müraciət edib"

"Rusiyanın Xarici işlər naziri Sergey Lavrov 2-3 dekabr tarixlərində Stokholmda ATƏT-in Xarici İşlər Nazirləri Şurasının iclasında iştirak edəcək. Qarabağda vəziyyət ATƏT-in Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində müzakirə olunacaq".

Bunu Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi sözçüsü Mariya Zaxarova bildirib.

(səh.2)

## "Azərbaycan delimitasiya prosesinə başlamağa hazırdır"

Ceyhun Bayramov: "Lakin Ermənistan buna qarşılıq verməyib"

**Dünən Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in fəaliyyətdə olan sədrinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Annika Söder ilə videokonfrans formatında görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən Trend-ə bildirilib ki, görüşdə nazir Ceyhun Bayramov bölgədə mövcud olan cari təhlükəsizlik vəziyyəti, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, o cümlədən regionda nəqliyyat kommunikasiyaların açılması ilə bağlı Azərbaycan tərəfindən görülən tədbirlər və digər məsələlər barədə qarşı tərəfə məlumat verib. Azərbaycanın bölgədə uzunmüddətli sülh və əmin-amanlığın təmin olunması mövqeyindən çıxış etdiyi vurğulanıb.



(səh.2)

## Yoluxma sayında azalma var

27 nəfər ölüb, 1 835 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1 880 yeni yoluxma faktı qeydə alınıb, 1 835 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 27 nəfər vəfat edib.

*İndiyədək ölkədə ümumilikdə 580 507 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 545 035 nəfər müalicə olunaraq sağalıb, 7 736 nəfər vəfat edib, aktiv xəstə sayı 27 736 nəfərdir.*

## Qadağa götürülür

Türkiyə malları Ermənistan bazarına daxil ola biləcək



**2022-ci il yanvarın 1-dən Ermənistana Türkiyədən tikinti materiallarının idxalına qoyulan qadağa götürüləcək.**

"Joxovurd" qəzeti yazıb ki, yaxın aylarda türk geyim, ayaqqabı, kosmetika və digər malların idxalına qoyulan qadağa da aradan qaldırılacaq.

Ermənistanın İqtisadiyyat naziri Vaan Kerobyan isə bildirib ki, bu məsələ müzakirə olunur və hökumət bunun qarşısını almaq üçün düşünür: "Türk mallarına qoyulan qadağanın uzadılmasının iqtisadiyyatımıza və yerli istehsala müsbət təsir göstərdiyini düşünməliyik. Bu istiqamətdə normal təhlil aparılandan sonra nəticələr ictimaiyyətə təqdim olunacaq".

(səh.4)



## Soçi görüşü konkret nəticələr verəcək

Maksim Şevçenko: "Prezident İlham Əliyevin Qarabağdakı ermənilərə vətəndaşlıq təklifi çox səxavətli təklifdir"

(səh.2)



## Saakaşvili hökumət qarşısında yeni tələb irəli sürdü

Əgər deputatların içəri buraxılması qadağan olunarsa müalicədən imtina edəcək

(səh.2)

# "Azərbaycan delimitasiya prosesinə başlamağa hazırdır"

## Ceyhun Bayramov: "Lakin Ermənistan buna qarşılıq verməyib"




**Dünən Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in fəaliyyətdə olan sədrinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Annika Söder ilə videokonfrans formatında görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "Şərq"ə bildirilib ki, görüşdə nazir Ceyhun Bayramov bölgədə mövcud olan cari təhlükəsizlik vəziyyəti, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, o cümlədən regionda nəqliyyat kommunikasiyaların açılması ilə bağlı Azərbaycan tərəfindən görülən tədbirlər və digər məsələlər barədə qarşı tərəfə məlumat verib. Azərbaycanın bölgədə uzunmüddətli sülh və əmin-amanlığın təmin olunması mövqeyindən çıxış etdiyi vurğulanıb. Azərbaycanın beynəlxalq hüququn prinsipləri əsasında Ermənistanla delimitasiya prosesinə başlamağa hazır olduğu, lakin Ermənistan tərəfindən buna qarşılıq verilmədiyi qeyd edilib.

Nazir, həmçinin azad olunmuş ərazilərdə Azərbaycan tərəfindən həyata keçirilən quruculuq işlərindən danışıb, eləcə də ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən iri miqyaslı regional layihələr, onların geniş coğrafi bölgənin inkişafı və tərəqqisinə xidmət etdiyini bildirib.

Öz növbəsində xüsusi nümayəndə Annika Söder ATƏT-in fəaliyyətdə olan sədri qismində İsveçin Cənubi Qafqaz bölgəsində regional əməkdaşlığı, bu xüsusda Azərbaycanın səylərini dəstəklədiyini bildirib, bu istiqamətdə fəaliyyətin bütün bölgənin inkişafı üçün önəmli olduğunu ifadə edib.

Tərəflər, Azərbaycanın ATƏT ilə əməkdaşlığı, o cümlədən həyata keçirilən layihələri və gələcək planları, habelə cari ilin dekabr ayında Stokholm şəhərində keçiriləcək qurumun Nazirlər Şurasının 28-ci iclasına hazırlıq məsələlərini müzakirə ediblər.

*Görüşdə tərəflər, habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.*



# Prezident İlham Əliyev Rusiya alimləri ilə görülüb

## Aleksandr Sergeyev xatirə medalını Prezident İlham Əliyevə təqdim edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Rusiya Federasiyasının Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Görüşdə Azərbaycanla Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu və əlaqələrimizin inkişafında humanitar sferada, o cümlədən elmi sahədə əməkdaşlığın rolu vurğulandı. Bu sahədə əməkdaşlığımızın zəngin tarixə malik olduğu bildirildi və müasir dövrdə bu əməkdaşlığın daha da möhkəmləndirilməsinin önəminə toxunuldu. Rusiya Federasiyasının Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevin səfərinin elmi əməkdaşlıq sahəsində əlaqələrin perspektivlərinin müzakirəsinə və daha da genişləndirilməsinə töhfə verəcəyi qeyd edildi.

*Aleksandr Sergeyev Rusiya Federasiyasının Elmlər Akademiyasının xatirə medalını Prezident İlham Əliyevə təqdim etdi.*



# Saakaşvili hökumət qarşısında yeni tələb irəli sürdü

## Əgər deputatların içəri buraxılması qadağan olunarsa müalicədən imtina edəcək

**Eks-prezident Mixeil Saakaşvili müalicə aldığı Qori hərbi xəstəxanasına deputatların buraxılmadığını açıqlayıb.**

Bu barədə Saakaşvilinin facebook hesabında qeyd olunub.

*O, bildirib ki, bu proses artıq bir həftədir ki, baş verir:*

"Artıq bir həftədir ki, Vahid Milli Hərəkat və digər partiyalardan olan deputatlar içəri buraxılmır. Son günlər palatamın yanında dayanan DTX nümayəndələri buradakı tibb işçilərini təhdidedici şəkildə axtarıb dindirirlər ki, mən onların vasitəsilə cəmiyyətimizə hərhansı mesaj göndərməyim.

Əgər sabahdan deputatların içəri buraxılması qadağan olunarsa, mən müalicə kursundan imtina edəcəyəm və yalnız həbsdən əvvəl aldığım dərmanları qəbul edəcəyəm", - deyə M. Saakaşvili qeyd edib.

# Soçi görüşü konkret nəticələr verəcək

## Maksim Şevçenko: "Prezident İlham Əliyevin Qarabağdakı ermənilərə vətəndaşlıq təklifi çox səxavətli təklifdir"

**Prezident İlham Əliyev Qarabağdakı ermənilərə Azərbaycan vətəndaşlığı təklif edir - bu, çox səxavətli təklifdir.**

Bunu Heydər Əliyev Mərkəzində jurnalistlərə açıqlamasında məşhur rusiyalı politoloq, teleaparıcı və ictimai xadim Maksim Şevçenko deyib.

"Sizin dövlət quruculuğu, müxtəlif etnik qrupların nümayəndələrinin yaşadığı, müxtəlif dillərdə danışdığı, lakin Azərbaycanı öz vətənləri kimi hiss edən, həqiqətən də müasir, vahid Azərbaycan xalqından formalaşır. Bunlar azərbaycanlılar, ləzgilər, avarlar, ruslar, udinlər, yəhudilər, talışlar və s.-dir Mən elə başa düşürəm ki, Azərbaycan Prezidenti İlham Əliyev erməniləri də Azərbaycan vətəndaşı olmağı və Azərbaycan millətinə qoşulmağı təklif edir. Bu, əsl Azərbaycan oğlunun ürəyindən gələ biləcək çox səxavətli təklifdir. Müharibə bitəndə bu cür təklif verilir - gəlin pisliyi unudaq və gələcəyə doğru gedək. Azərbaycan xalqının xarakterinin, ruhunun sirri mənə çox maraqlı idi. Demək olar ki, bütün yetkin həyatım boyu bu məsələni araşdırmışam. Mən sizin xalqının sirrini hələ də tam başa düşə bilmirəm. Döyüşçü, şair və musiqiçi olmağı, dünyaya açıq və mehriban olmağı, heç kimə kin saxlamamağı necə bacarırsız?!".



**O, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası sürətinə heyran olduğunu bildirib:**

"Şuşa şəhərində oldum. Gözəl Zəfər yolu ilə getdim, Füzuli beynəlxalq hava limanını gördüm. Bu əsl möcüzədir

Azərbaycanın işğaldan azad edilmiş əraziləri dirçəlir. Tezliklə mənə deyildiyi kimi, daha müasir yol istifadəyə veriləcək, Şuşa şəhərinə tunellər çəkiləcək. Orada işləyən və bərpa işəri görə insanları gördüm. Azərbaycan Prezidenti İlham Əliyev bütün bu işləri strateji cəhətdən öz iradəsi və aydın düşüncəsi ilə əlaqələndirir".

Maksim Şevçenko onu da deyib ki, Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyanın Soçi görüşü konkret nəticələr verəcək:

"Hesab edirəm ki, yalnız Soçi görüşü konkret nəticələr verə bilər. Bakı-İrəvan-Moskva üçbucağında yerləşən proses mənə çox perspektivli görünür", - deyə o qeyd edib.

Bu görüşdə müzakirəsi gözlənilən mövzulara gəlincə, M.Şevçenko sərhədlərin delimitasiyası ən vacib mövzu olduğunu vurğulayıb:

"Bir müddət əvvəl Ermənistan-Azərbaycan sərhədində faciəli hadisələr baş verəndə, o zaman insanlar həlak olanda, teleqram kanalımda yazmışdım ki, Ermənistan bu cür davranmağa davam edərsə, Qarabağ üçün ağladığı kimi Zəngəzura da ağlayacaq. (trend) Orada bu, kəskin reaksiya ilə qarşılanıb. Amma bu doğrudur. Müharibə ermənilərə yaxşı heç nə gətirməyəcək".



# Baş nazir qərar imzalayıb

## Şuşada üzərində reklam yerləşdirilməsi qadağan edilən abidələrin siyahısı təsdiqlənib

**Şuşa şəhərinin ərazisində üzərində və mühafizə zonalarında reklam qurğularının yerləşdirilməsi qadağan edilən abidələrin siyahısı təsdiqlənib.**

Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərar "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycanın 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Prezidentinin fərmanının icrasını təmin etmək məqsədilə hazırlanıb.

Nazirlər Kabineti tərəfindən müvafiq Qərarın qəbul edilməsi Şuşa şəhəri ərazisindəki tarix-mədəniyyət abidələrinin qorunması, salamatlığının təmin edilməsi, quruluşuna xələl gətirilməməsi və gələcək nəsillərə olduğu kimi çatdırılmasına hüquqi zəmin yaradır, həmçinin ərazidə qoruq rejiminin tətbiqinə imkan verir. Bununla Şuşa şəhərinin tarix və mədəniyyət abidələrinin dövlət tərəfindən mühafizəsi gücləndirilir.

# "Mən təsdiqləyə bilərəm..."

## Mariya Zaxarova: "Ermənistan Yerevanla Ankara arasında münasibətlərin normallaşması üçün Moskvaya müraciət edib"




## "Cənubi Qafqazda nəqliyyat əlaqələrinin bərpasına xüsusi diqqət ayrılır"

**"Rusiyanın Xarici işlər naziri Sergey Lavrov 2-3 dekabr tarixlərində Stokholmda ATƏT-in Xarici İşlər Nazirləri Şurasının iclasında iştirak edəcək. Qarabağda vəziyyət ATƏT-in Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində müzakirə olunacaq".**

Bunu Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi sözçüsü Mariya Zaxarova bildirib. O, həmçinin bildirib ki, Rusiyanın Xarici işlər naziri Sergey Lavrov 2-3 dekabr tarixlərində Stokholmda ATƏT-in Xarici İşlər Nazirləri Şurasının iclasında iştirak edəcək. XİN rəsmisinin sözlərinə görə, görüş zamanı təşkilatın hərbi-siyasi, iqtisadi-ekoloji və humanitar məsələlərdə perspektivi, ATƏT məkanında münaqişəli vəziyyətlərin həllinə yardım mövzusu, həmçinin Qarabağdakı vəziyyət müzakirə olunacaq. Zaxarova, həmçinin vurğulayıb ki, hazırda Cənubi Qafqazda nəqliyyat əlaqələrinin bərpasına xüsusi diqqət ayrılır: "Biz regionda dinc həyatın bərqərar olması, sabitliyin möhkəmlənməsi ilə bağlı addımların atılması üçün lazım olan hər şeyi edirik. Hazırda ticari-iqtisadi və nəqliyyat əlaqələrinin bərpasına xüsusi diqqət ayrılıb".

**Mariya Zaxarova bildirib ki, Ermənistan Türkiyə ilə münasibətləri normallaşdırmaqla bağlı vasitəçilik etməsi üçün Rusiyaya müraciət edib:** "Mən təsdiqləyə bilərəm ki, Ermənistan Yerevanla Ankara arasında münasibətlərin normallaşması üçün Moskvaya müraciət edib. Rusiya Ermənistan-Türkiyə münasibətlərinin normallaşmasında maraqlıdır və dəfələrlə bu barədə bəyan edib. Rusiya hətta iki ölkənin münasibətlərinin normallaşması prosesinə səy göstərib. Bizim ölkə bundan sonra da yardım etməyə hazırdır. Bu prosesə başlanılması şübhəsiz ki, bütün regionda cəmiyyətin sağlamlaşmasına və mehriban qonşuluq və etimad mühitinin formalaşmasına kömək edərdi. İndi bu, xüsusilə aktualdır. Bu istiqamətdə yeni məqamlar olacağı təqdirdə sizi məlumatlandıracağıq".

**M.Zaxarova vurğulayıb ki, Rusiya regiondakı sabitliyi gücləndirmək, Azərbaycanla Ermənistan arasında dinc münasibətlər qurmaq üçün addımlar atır:** "Regionda sabitliyin gücləndirilməsi, dinc həyatın bərqərar olması üçün Rusiya əlindən gələni edir. Əsas diqqət iqtisadi-ticari əlaqələrin, nəqliyyat bağlantılarının bərpasına yönəldilir".

*Mariya Zaxarova onu da qeyd edib ki, noyabrın 19-20-də Bakıda Rusiya-Azərbaycan Ekspertlər Şurasının birinci iclasının keçirilməsini alqışlayırıq:* "Fikrimizcə, ekspertlər səviyyəsində keçən belə görüşlər diplomatik təmasların intensiv siyasətini harmonik şəkildə tamamlayır və regionda vəziyyətin sabitləşməsi, Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması məqsədi ilə rəsmi yollarla qarşılıqlı sərfəli həllərin axtarıb tapılması səylərini möhkəmləndirir. Şərti desək, konkret olaraq həyatı gündəmdə olan siyasi səyləri tamamlayır. Bu olduqca vacib prosesdir. Ona görə də biz üçtərəfli - Rusiya-Azərbaycan-Ermənistan ekspert dialoqu ilə bağlı işlərə başlamağı vacib hesab edirik", - M.Zaxarova qeyd edib.

**Aynurə Pənahqızı**



# Fikrət Əmirovun və Hacı Zeynalabdin Tağıyevin yubileyləri UNESCO-da qeyd ediləcək

**Fikrət Əmirov və Hacı Zeynalabdin Tağıyevin yubileyləri UNESCO-nun yubileylər proqramına daxil edilib.**

Mədəniyyət Nazirliyindən verilən məlumata görə, UNESCO-nun 41-ci Baş konfransı çərçivəsində Azərbaycanın iki tarixi şəxsiyyəti - mesenat H. Z. Tağıyevin anadan olmasın 200 illiyi və bəstəkar Fikrət Əmirovun 100 illiyi UNESCO-nun 2022-2023-cü illər üzrə yubileylər proqramına salınıb və bu yubileylərin UNESCO səviyyəsində beynəlxalq miqyasda qeyd edilməsi təsdiq edilib.

"Azərbaycanın dahi şəxsiyyətləri və ölkəmizin tarixi-mədəni irsi il bağlı əlamətdar hadisələrin UNESCO səviyyəsində qeyd edilməsi ənənəsi uzun illərdir davam edir və bununla bağlı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən xüsusi nominasiya sənədləri hazırlanır. Bu il də Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, UNESCO yanında Daimi Nümayəndəlik və UNESCO üzrə Milli Komissiyanın birgə fəaliyyəti nəticəsində yubileylərlə bağlı müvafiq nominasiya sənədləri UNESCO-ya təqdim olunub", - məlumatda bildirilib.

# Hazırlıq görülür

## Almaniyadan 20-ə yaxın azərbaycanlı deportasiya olunacaq

**Almaniyada qanunsuz yaşayan və sığınacaq üçün müraciətləri rədd edilərək, barələrində deportasiya qərarı çıxarılan 20-ə yaxın Azərbaycan Respublikası vətəndaşı deportasiya ediləcək.**

"Report"un Avropa bürosunun xəbərinə görə, artıq bir neçə gündür ki, Almaniyanın Şimali Reyn Vestfaliya əyalətində yaşayan azərbaycanlılar Düsseldorf şəhər hava limanı yaxınlığındakı deportasiya mərkəzinə gətirilirlər.




Koronavirus testi verən azərbaycanlıların 26 noyabr gecə saatlarında çarter reysi ilə Azərbaycana deportasiya edilməsi gözlənilir.

Deportasiya olunanların əksəriyyəti 2018-2020-ci illərdə Almaniyaya qaçqın statusu almaq üçün gələn, yerli məhkəmələrdən rədd cavabı alan və indiyə kimi ölkəni könüllü tərk etməyən şəxslərdir.

Almaniya Miqrasiya və Qaçqınlarla iş üzrə Federal İdarənin məlumatına görə, bu ilin 9 ayı ərzində 407 Azərbaycan Respublikası vətəndaşı sığınacaq istəyib. Onlardan 259 nəfərin ərizəsi rədd edilib və barələrində ölkəni könüllü tərk etmələri üçün yerli məhkəmələr tərəfindən qərar çıxarılıb.

# Sərhəddə yenə hərəkətlilik var

## Soçi görüşü öncəsi ermənilərin təxribatları gözlənilir



“Rusiyaya bağlı qüvvələr Moskvanın maraqları təmin olunmadıqda, dərhal meydana çıxırlar”

İsmayıl Qocayev

**Soçi və qarşıdan gələn Brüssel görüşləri öncəsi Ermənistan tərəfinin növbəti təxribatları baş verə bilər. Erməni mediasında bu iddiaları gücləndirən informasiyalar yayılmaqdadır. Eyni zamanda ölkəmizdə də bir çox ekspert nəzərdə tutulan görüşlərin nəticə verməməsi üçün müəyyən dairələrin yenidən təxribat düyməsinə basacağını istisna etmirlər.**

Məsələn, hərbi ekspert Ədalət Verdiyev Ermənistan ordusunda təxribata hazırlıq prosesi getdiyini söyləyib. Onun fikrincə, hər dəfə danışıqlar prosesi çərçivəsində erməni tərəfi təxribat törətməklə danışıqlara zərbə vurur. Ekspert xatırladıb ki, 10 Noyabr bəyanatından sonra da bu təxribatlar davam etdi: ”Soçi görüşü ərəfəsində ermənilər yeni təxribat törədə bilərlər: ”Ermənistan ordusunda təxribata hazırlıq prosesi gedir. Laçın və Kəlbəcərin Ermənistanla sərhədində yerləşən hərbi hissələr 1 saylı döyüş hazırlığı vəziyyətinə gətirilib. Paşinyanın Soçi səfəri zamanı ona müxalif generalların növbəti dəfə atəşkəsi pozmaq cəhdi istisna edilmir”.

Ermənistanın ”Hraparak” qəzeti də Azərbaycanla sərhəddə ”canlanmadan” bəhs edib. Nəşr yazıb ki, hökumət Ermənistan-Azərbaycan sərhədində qoşun cəmləşmələri ilə bağlı məlumatı təsdiqləməsə də, artıq bir neçə gündür ki, orduda bir nömrəli vəziyyət elan olunub: ”Döyüş növbətçiliyində olmayan müqaviləli hərbi qulluqçular hərbi hissələrə çağırılıb. Zəngəzur və Göyçədən əldə etdiyimiz məlumata görə, onlara noyabrın 25-26-na kimi hərbi hissələrdə qalmaları və ya ola biləcək bəzi hadisələrə görə döyüş növbətçiliyinə mümkün olduğu deyilib”. Qeyd edək ki, İrəvandakı etiraz aksiyaları, Soçi görüşü xəbərdarlığı, Brüssel hazırlığı fonunda bir erməni hərbçinin, guya, Kəlbəcər istiqamətindən açılan atəş nəticəsində ölməsi barədə dezinformasiyalar da köhnə ssenariləri xatırladır. Oktyabr ayında bir traktorçu və bir hərbçinin ölümü ilə bağlı ermənilər iki dezinformasiya yaymışdılar, ardınca ordumuza qarşı terror hücumu olmuşdu.

**Gözlənilən erməni təxribatı ilə bağlı ”Şərq”ə danışan politoloq Natiq Miri deyib ki, həm Ermənistan ordusunda, həm də Qarabağda Rusiyaya bağlı qüvvələr var.** Ekspertin fikrincə, həmin qüvvələr Moskvanın maraqları təmin olunmadıqda, yaxud Kreml üçün arzuolunmaz hadisələr yaşandıqda dərhal meydana çıxırlar: ”Moskva məhz öz mənafeləri naminə Ermənistan ordusunun içində rusmeyilli hərbçiləri saxlayır. Eyni zamanda Qarabağda qanunsuz erməni silahlı birləşmələrinin qalmasına şərait yaradır. Nə zaman tərəflər müstəqil qərar versələr və bu addım Kremlin maraqlarına zidd olsa, dərhal düyməyə basılır. Rusiya heç zaman bu siyasətdən vaz keçməyəcək. 10 noyabr Bəyannaməsinin 4-cü bəndinin, yəni erməni terrorçularının bölgədən çıxarılmamasının əsas səbəbi budur. Məqsəd ”lazım” olan anda yaranı yenidən qanatmaqdır. Əgər Qarabağda erməni silahlıları olmasaydı, rus hərbçiləri təxribat yaratmaq üçün Azərbaycan Ordusu ilə qarşı-qarşıya gəlmək məcburiyyətində qalacaqdı ki, bu da ”sülhməramlı” qoşun üçün arzuolunmaz haldır”.

**N.Miriyə görə, eyni hadisələr Ermənistanda da davam edir:** ”Ermənistan ordusunun hərbi rəhbərliyinin əksəriyyəti Rusiyanın əks-kəşfiyyatına bağlı insanlardır. Onların hamısı birbaşa Kremldən idarə olunur. Moskvanın tabeliyində olan siyasi və hərbi qüvvələr zaman-zaman Nikol Paşinyanın əleyhinə olaraq bu cür təxribatlar törədirlər. Bununla da Azərbaycan-Ermənistan danışıqlarını çox rahatlıqla sabotaj edirlər. Son günlərdə Azərbaycan və Ermənistan müdafiə nazirlərinin birbaşa telefon vasitəsi ilə əlaqə bağlamaq imkanlarının yaradılmasının əsas səbəbi bu cür təxribatların qarşısının alınması üçündür. Bunu Paşinyan çıxışı zamanı etiraf etdi. Baş nazir dolayısı ilə təsdiq etdi ki, o, hələ də erməni ordusuna nəzarət edə bilmir. Müdafiə nazirinin dəyişdirilməsi və ordunun başına tarix müəlliminin gətirilməsi bununla bağlı idi. Amma Ermənistanda Rusiyanın dəstəklədiyi revanşist güclər mövcud olduqca, ermənilərin hərbi təxribatlarını bundan sonra da müşahidə edəcəyik. Xatırladım ki, əvvəlki Soçi görüşü öncəsi də erməni təxribatı ilə üzləşmişdik. Növbəti təxribatları da istisna etmirəm”.



# Cənubi Koreya şirkətlərinə də şərait yaradılır

**Cənubi Koreyanın paytaxtı Seulda ”Azərbaycan - Koreya Ticarət və İnvestisiya Forumu: Qarabağa Böyük Qayıdış: azad olunmuş ərazilərin investisiya potensialı, cari və planlaşdırılmış layihələr” mövzusunda tədbir keçirilib.**

İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, tədbir İqtisadiyyat Nazirliyinin dəstəyi, nazirlik yanında Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO), Azərbaycanın Cənubi Koreyadakı Səfirliyinin və Koreya Beynəlxalq Ticarət Assosiasiyasının (KITA) birgə təşkilatçılığı ilə baş tutub.

Məlumata görə, tədbirdə kənd təsərrüfatı və qida sənayesi, tikinti, ticarət, təhsil və digər sahələri təmsil edən 50-dən çox Koreya şirkəti iştirak edib.

**Forumda çıxış edən iqtisadiyyat nazirinin müavini Elnur Əliyev ölkəmizin Cənubi Koreyanın biznes və ticarət təşkilatları, o cümlədən KITA ilə əməkdaşlığı, qarşılıqlı biznes əlaqələrinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib, Azərbaycanda 70-dən çox Koreya şirkətinin fəaliyyət göstərdiyini qeyd edib.**

Nazir müavini Azərbaycanın milli sosial-iqtisadi prioritetləri, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirlərinə və dünya iqtisadiyyatına inteqrasiyası baxımından görülən işləri diqqətə çatdırıb, Koreya şirkətlərini Azərbaycanın əlverişli işgüzar mühitindən yararlanmağa, fəal əməkdaşlığa, işğaldan azad olunmuş ərazilərimizdə reallaşdırılan layihələrdə iştirak etməyə dəvət edib.

Onlar da Qarabağın bərpa-quruculuq işlərində iştirak edəcəklər

Azərbaycanın Cənubi Koreyadakı səfiri Rəmzi Teymurov son illər iki ölkə arasında əməkdaşlığın daha da möhkəmləndiyini, əlaqələrin dərinləşməsində qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edib, Azərbaycanın Vətən müharibəsində qazandığı böyük Zəfəri diqqətə çatdıran səfir bu tarixi hadisənin Azərbaycan üçün, bütünlükdə region üçün yeni reallıqlar, yeni iqtisadi imkanlar yaratdığını vurğulayıb.

KITA-nın icraçı vitse-prezidenti Seunq Kvan Şin Azərbaycanla ölkəsi arasında ticarət əlaqələrinin genişləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb, KITA və Azərbaycanın müvafiq qurumları ilə tərəfdaşlığın inkişafının önəmini diqqətə çatdırıb. İqtisadiyyat Nazirliyinin Ərazilərin bərpası və inkişafı şöbəsinin müdiri Zamin Bədirxanov işğaldan azad olunmuş ərazilərimizin iqtisadi dirçəlişi, bərpa-quruculuq işləri, reallaşdırılan layihələr, AZPROMO-nun rəhbəri Yusif Abdullayev ölkəmizdə xarici investisiyaların cəlbi istiqamətində həyata keçirilən islahatlar, investorlar üçün yaradılmış əlverişli investisiya mühiti barədə təqdimatlarla çıxış ediblər.

Tədbirdə həmçinin, Ələt Azad İqtisadi Zonasının ticarət, nəqliyyat-logistika imkanları və Azərbaycanda reallaşdırılan investisiya layihələrinə dair təqdimat keçirilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb, qarşılıqlı əməkdaşlıq imkanları müzakirə edilib. Tədbir çərçivəsində Azərbaycan nümayəndə heyəti ilə KITA arasında investisiya və biznes əlaqələrinin genişləndirilməsi mövzusunda ikitərəfli görüş keçirilib.

**İsmayıl**



# Avropa Qarabağ mövzusuna səssiz qalmayacaq

## Moskva görüşü də, Brüssel görüşü də faydalı və lazımdır

İsmayıl Qocayev

**Rusiya Prezidenti Vladimir Putin Avropa Şurasının rəhbəri Şarl Mişellə telefonla danışıb. Bildirilib ki, onlar Qarabağ, Əfqanıstan və Liviyadakı vəziyyəti də müzakirə ediblər. Kremldən verilən məlumata görə, Putin Mişelin xahişi ilə 10 noyabr 11 yanvar tarixli üçtərəfli sazişlərin müddəalarının həyata keçirilməsi üçün atılan addımlar, dinc həyatın bərqərar edilməsi, iqtisadi və siyasi münasibətlərin bərpası, həmçinin Cənubi Qafqazda nəqliyyat əlaqələri açılması ilə bağlı məlumat verib.**

Xatırladaq ki, noyabrın 26-da Rusiya dövlət başçısının təşəbbüsü ilə Soçidə Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında üçtərəfli danışıqlar keçiriləcək.

**Şarl Mişel və Vladimir Putin arasında Soçi görüşü öncəsi baş tutmuş danışığı ”Şərq”ə şərh edən siyasi şərhçi Azər Həsrət deyib ki, Mişelin Putinə zəngi, sadəcə, Azərbaycan-Ermənistan münasibətləri ilə bağlı deyil.** Onun sözlərinə görə, tərəflər geniş spektrli məsələləri müzakirə ediblər: ”Xüsusən, Rusiya-Ukrayna məsələsi əsas müzakirə predmeti olub. Təbii ki, Mişel Azərbaycan-Ermənistan problemi ilə bağlı da Putindən əlavə informasiyalar istəyib. Putin də onu məlumatlandırıb. Bu, ondan xəbər verir ki, Avropa İttifaqı Şurasının prezidenti dekabrın 15-də Azərbaycan Prezidenti ilə Ermənistan baş nazirinin görüşünə yaxşı hazırlaşmaq niyyətindədir. Ən azından istəyir ki, tərəflər 15 dekabrda Brüsseldə baş tutacaq görüşdən hansısa razılaşma ilə çıxsınlar. Yəni görüşdə nəticə olsun. Xatırlayırsızsa, Mişel Putindən öncə dövlət başçısı İlham Əliyevlə və erməni Baş nazir Nikol Paşinyanla da telefonla əlaqə saxlayıb. Yəqin ki, Mişel prosesləri özü üçün təhlil edəcək və tərəflərə müəyyən təkliflər verəcək”.

Şarl Mişel Putindən aldığı əlavə məlumatlar əsasında liderlərin görüşünə hazırlaşmaq niyyətindədir

**A.Həsrət əlavə edib ki, Putin də noyabrın 26-da tərəfləri bir araya gətirir:** ”Hər halda görüş təşəbbüslərinin ikisi də faydalı və lazımlıdır. Ümumiyyətlə, bu məsələdə Putinin bir qədər fəallaşmaya ehiyac duymasının özü də mühümdür. Bölgəmizdəki əsas qlobal güc Rusiyadır. Bu, danılmaz faktdır. Düzdür, bəxtimiz gətirib ki, yanımızda qardaş Türkiyə kimi bir dövlət də var. O baxımdan özümüzü rahat, güvəndə hiss edə bilirik. Məncə, Moskvanın aktivləşməsi ümumi işin xeyrinədir. Kreml istənilən halda münasibətlərin normallaşmasına töhfə verməyə məcburdur. Əgər Rusiya bunu etməzsə, dövrəyə başqa, kənar güclər girəcək. Necə ki, Avropa İttifaqı məhz belə məqamda ortaya atıldı. Bu isə əslinə qalsa, Moskvanın nüfuzuna ciddi zərbədir. Fikrimcə, Kreml rəhbəri məhz bu prosesdən sonra fəallaşmağa qərar verdi”.

# Zəngəzur dəhlizinin açılması Rusiyanın da marağındadır

## Paşinyan danışıqlar masasındakı mövzuları qəbul etmək zorundadır

**Ermənistan Baş naziri Nikol Paşinyan ”Facebook” vasitəsi ilə sualları cavablandırarkən yenidən əsassız iddialar irəli sürüb. Qeyri-konstruktiv mövqe sərgiləməyə, ən əsası da imza atdığı kapitulyasiya aktının bir çox bəndini pozmağa yönəlik bəyanatlar səsləndirib. Paşinyan öz nitqində Qarabağı yenə də ”Artsax” adlandıraraq Azərbaycanın bu bölgəsinin ”öz müqəddəratını təyinetmə” statusuna malik olduğunu bildirib.**

Baş nazir kommunikasiyaların açılmasında Ermənistanın maraqlı olduğunu desə də, bəyanatda əksini tapan Zəngəzur dəhlizi ilə bağlı əsassız fikirlər dilə gətirib. O, fikrini belə əsaslandırır ki, üçtərəfli bəyanatda dəhliz ifadəsi yoxdur. Üçtərəfli bəyanatın 9-cu bəndində dəhliz ifadəsi işlədilməyib. Ermənistan hələ başa düşə bilmir ki, regionda Zəngilan dəhlizinin açılması ilk növbədə ermənilərin öz maraqlarına xidmət edəcək. Azərbaycan İran vasitəsilə və hava yolları ilə Naxçıvanın blokadadan çıxmasını hələ uzun müddət bundan əvvəl təmin edib. Zəngəzur dəhlizinin açılması üçün Azərbaycan postmüharibə dövründə sərhəd zonasında strateji yüksəkliklərə yiyələnib. Bu, Bakının hərbi strategiyasının ümumi dövlət maraqlarının təmin edilməsinə hesablanmış uyğunlaşdırmadır. Eyni zamanda Azərbaycan tərəfi dəhlizin açılması üçün infrastruktur layihələrinə başlayıb. Ekspertlərin fikrincə, Paşinyanın bəyanatları daxili auditoriyaya hesablanmaqla yanaşı, gözlənən danışıqlar prosesində Ermənistanın yenə də yüksək nəticələrin əldə olunmasına mane olmaq istəyindən xəbər verir.

**Millət vəkili Arzu Nağıyev Paşinyanın çıxışlarının daxili auditoriyaya hesablandığını düşünür və deyir ki, bu fikirlər spekulyasiya xarakteri daşıyır:** ”Ermənistan məğlub ölkədir. Paşinyan məğlub ölkənin başçısı kimi öz nüfuzunu qaldırmaq, hakimiyyətini qorumaq üçün çıxışlar edir. Amma reallıq danışıqlar masasındakı mövzulardır. Ermənistan tərəfi bu reallıqları qəbul etməyə məcburdur. Paşinyan administrasiyası iki ölkə arasındakı məsələlərin həllinə Qərbi cəlb etməyə çalışır. Ermənistan istəyir ki, görüşlər Qərbin patronajlığı altında keçirilsin. Lakin Rusiyada Paşinyanın kim olması və hansı siyasi oyunlar qurduğunu yaxşı dərk edirlər. Buna görə də Rusiya tərəfi prosesləri nəzarətdə saxlamağa çalışır. Bu proseslərdə Azərbaycan diktə edən tərəfdir. Ona görə də Azərbaycan təmkinli şəkildə öz siyasətini sərgiləyir. Bizim əsas məqsədimiz sərhədlərin müəyyən edilməsi və təklif olunmuş ”3+3” formatının reallaşmasıdır. Unutmaq lazım deyil ki, regionda Qərbin də, Rusiyanın da öz strateji maraqları mövcuddur. Azərbaycan müstəqil siyasət aparan bir ölkədir. Buna görə də bütün tərəflərlə bərabərhüquqlu müstəvidə danışıqlar aparır. Xarici siyasətimizin əsasında da ərazi bütövlüyümüzün tanınmasını qəbul etdirmək dayanır. Danışıqlar prosesində də bu müddəanın yerinə yetirilməsini təmin etmək istəyirik”.



“Soçidə bəzi razılıqlar əldə olunacaq, sənədlər imzalanacaq”

*Politoloq Əlimusa İbrahimov da deyib ki, Baş nazir Nikol Paşinyan və onun komandası həmişə bəyan edirdilər ki, Zəngəzur dəhlizi açılmasa da, kommunikasiyalar açılacaq. Onun sözlərinə görə, Azərbaycan və Rusiyanın məqsədi isə təkcə kommunikasiyaların deyil, həm də dəhlizin açılmasıdır:* ”Azərbaycanla yanaşı Rusiya da dəhlizin açılmasında maraqlıdır. Çünki bu dəhliz həm region ölkələrinə, həm də Asiyaya təsir vasitəsidir. Odur ki, Moskva dəhlizin açılması üçün İrəvana təzyiq edir. Fikrimcə, dəhliz açılacaq, ora Rusiya qoşunları nəzarət edəcək və siyasi-iqtisadi dividendlər də şimal qonşumuza qalacaq. Əlbəttə, Ermənistan dəhlizin açılmasının əleyhinədir. Elə buna görə Nikol Paşinyan üçtərəfli görüşə getmək istəmirdi. Bilirdi ki, sıxışdırılacaq. Avropada görüş məsələsi gündəmə gələndə o, ola bilsin, müəyyən mənada ümidləndi. Amma bu, boş xülyadan başqa bir şey deyil”.

**Politoloqun sözlərinə görə, son vaxtlar Rusiya dövlət başçısı Vladimir Putinin Paşinyana təzyiqləri daha da artıb:** ”Ola bilsin, Ermənistanın baş nazirinin Soçiyə getməsi üçün ona müəyyən təsir göstərilib. Çünki bu görüş onun ürəyincə deyil. Düşünürəm ki, Soçidə bəzi razılıqlar əldə olunacaq, sənədlər imzalanacaq. Bunun Zəngəzur dəhlizi ilə bağlı olması da istisna deyil. Çünki Rusiya Avropanı qabaqlamaq niyyətindədir. Putin istəyir ki, Brüsseldə müzakirə olunacaq məsələ qalmasın. Zəngəzur dəhlizinin açılması, sözsüz, bu gün üçün rəsmi Bakının prioritetidir. Bundan sonra Ermənistan növbəti dəfə ağır məğlubiyyətə uğrayacaq, Azərbaycanın ən böyük problemi həllini tapmış olacaq”.

**İsmayıl**

# Onlar birbaşa toplumun içinə buraxılmamalıdır

## Suriyadan dönən azərbaycanlılar mütləq nəzarət altında olmalıdır



***Sərdar Cəlaloğlu: "Xüsusi sığınacaqlar var ki, belə şəxslər bir müddət orda saxlanılır və hər cür şəraitlə təmin edilirlər. Daha sonra bu insanların cəmiyyətə adaptasiyası reallaşır"***

**Suriya Ərəb Respublikasının Cerablus şəhərindəki Amerna düşərgəsində saxlanılan Azərbaycan Respublikası vətəndaşı olan 12 nəfərin repatriasiyası həyata keçirilib. Xarici İşlər Nazirliyinin məlumatına görə, qeyd olunan şəxslərin ölkəmizə gətirilməsi Azərbaycan Respublikasının hökuməti tərəfindən görülmüş mərhələli və əlaqələndirilmiş tədbirlər nəticəsində baş tutub.**

Öncə vətənə repatriasiyası nəzərdə tutulan vətəndaşlarımızın yeri, şəxsiyyəti müəyyən edilib, daha sonra onların Türkiyə Respublikasının ərazisinə keçidi təmin olunub. Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyi tərəfindən ölkəyə qayıtması üçün vətəndaşlarımız ”Azərbaycan Respublikasına qayıdış şəhadətnamə”ləri ilə təmin edilib və 24 noyabr tarixində qeyd olunan vətəndaşların Ankara-Bakı reysi ilə Azərbaycan Respublikasına repatriasiyası həyata keçirilib. Azərbaycan Respublikasının hökuməti tərəfindən sözügedən şəxslərin reabilitasiyası və reinteqrasiyası üçün bütün lazımi tədbirlərin görülməsi nəzərdə tutulub. Vətəndaşlarımızın repatriasiyası Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarının birgə və əlaqələndirilmiş fəaliyyəti əsasında həyata keçirilib. Bu prosesin reallaşmasında Türkiyə Respublikası tərəfindən göstərilmiş yardım xüsusilə qeyd olunmalıdır. Azərbaycan Respublikasının hökuməti öz vətəndaşlarının hüquq və azadlıqlarının qorunması istiqamətində zəruri tədbirlərin görülməsini bundan sonra da davam etdirəcək.

Suriyada terror qruplaşmalarının əsiri olmuş soydaşlarımızın Vətənə döndükdən sonra həyatı necə keçir? Onlara nə kimi yardım göstərilir. Unutmayaq ki, Vətənə gətirilənlər arasında azyaşlı uşaqlar da olur. Bir müddət əvvəl yenə də qardaş Türkiyənin köməyi ilə aralarında azyaşlıların da olduğu bir neçə azərbaycanlı ailəsi Suriyadan Vətənə gətirilmişdi.

**Azərbaycan Demokrat Partiyasının sədri, politoloq Sərdar Cəlaloğlu ”Şərq”ə açıqlamasında qeyd etdi ki, Suriyadan Azərbaycana repatriasiya edilmiş şəxslər mütləq bir müddət nəzarət altında olmalıdır:** - Bu kontingent birbaşa toplum içinə buraxılmamalıdır. Əlbəttə, əvvəlcə araşdırma aparılır, onlara psixoloji yardım göstərilir, yaşayış yerləri müəyyənləşir. Zəruri filtrasiya prosesindən sonra bu şəxslərin cəmiyyətə adaptasiyası mümkündür. Xüsusilə uşaqların psixoloji durumu öyrənilməlidir və onlara psixoloji yardım göstərilməlidir. O cür qanqadanın, atəşin altında yaşamış uşaqların psixologiyasında dərin problemlər ola bilər.

**S.Cəlaloğlu qeyd etdi ki, Azərbaycan dövləti öz soydaşlarına sahib çıxıb Vətənə gətirilmələrinə çalışırsa, deməli, onların sosial məsələləri də həllini tapır.** Əlbəttə ki, dövlət onları nəzarətsiz, qayğısız qoymayacaq. Onların yaşayış yeri ilə təmini, gündəlik tələbatlarının ödənməsi üçün maddi köməklik göstəriləcək. Xüsusi sığınacaqlar var ki, belə şəxslər bir müddət orda saxlanılır və hər cür şəraitlə təmin edilirlər. Daha sonra bu insanların cəmiyyətə adaptasiyası reallaşır: - Bu insanları qrup halında eyni məkanda toplamaq zərərli və təhlükəli ola bilər. Əksinə, onları cəmiyyət içində yaymaq lazımdır. Amma filtrasiya prosesindən sonra. Və təbii ki, uzun müddət nəzarət altında olmalıdırlar. Nəzarət deyəndə, elə başa düşülməsin ki, bu insanlar daim müşahidə altında olacaq, hərəkət məhdudiyyəti yaranacaq. Xeyr. Sadəcə, dövlət orqanları başqa şəxslər tərəfindən bu insanları yenidən hansısa qruplaşmalara cəlb etməyə maraq göstərə, cəhd edə bilər. Dövlət bunun qarşısını almalıdır.

**Məlahət Rzayeva**



# Paşinyanın separatçılara pul ayırması təcavüz faktorudur

## Soçi görüşündə Ermənistanın baş nazirinin qarşısında şərt qoyulmalıdır

**Ermənistan Qarabağdakı separatçılara 13.5 milyard (28 milyon dollar) dram məbləğində ”dövlətlərarası” kredit verəcək. Qərar Ermənistan hökumətinin dünən keçirilən iclasında qəbul edilib.**

Ermənistan Maliyyə naziri Tiqran Xaçatryanın sözlərinə görə, vəsaitin 6,5 milyard dramı (təqribən 14 milyon dollar) maaşların, 1,2 milyard dramı (2.5 milyon dollar) təqaüdlərin, 349 milyon dramı (731 min dollar) isə müavinətlərin ödənilməsinə sərf ediləcək. Vəsaitin qalan hissəsi isə ”yerli idarəetmə” orqanlarına və elektrik enerjisi, qaz və rabitə xərcləri, səhiyyə üçün nəzərdə tutulub. İclasda cari ilin əvvəlindən bəri separatçı rejimə müxtəlif yollarla 120 milyard dramdan çox pul ayrıldığı da qeyd edilib. Paşinyanın yenə separatçılara pul ayırmaqda məqsədi nədir?

Sualımızı cavablandıran AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli ”Şərq”ə açıqlamasında deyib ki, Paşinyanın əsas məqsədi Qarabağı Azərbaycandan qopartmaqdır: ”Paşinyanın son çıxışları da buna sübutdur. Paşinyan yenə əsl üzünü, niyyətini, xislətini ortaya qoydu. Hesab edirəm ki, Soçidəki görüşdə İlham Əliyev Paşinyanın qarşısına şərt qoymalıdır. Ya Ermənistan Qarabağdan əl çəkməlidir rəsmi sürətdə, ya da Azərbaycan 10 noyabr razılaşmasından tam çıxmalıdır. Ümumiyyətlə, Azərbaycanın buna hüququ da var. Öz qalan ərazilərini də 44 günlük müharibədəki kimi qaytarmalıdır. Azərbaycan ərazisində sən kimsən ki, kiməsə də pul ayırasan? Bu, konkret təcavüz faktorudur, buna da cavab verilməlidir ki, bir də heç vaxt ağıllarına belə şeyləri gətirməsinlər. Əks halda 44 günlük müharibədə atdığımız uğurları siyasi masada da verə-verə gedəcəyik. Axırda görəcəyik ki, heç də yaxşı vəziyyətdə deyilik”.

**Aynurə Pənahqızı**

# Rusiya iqtisadiyyatına 100 milyard dollardan artıq ziyan dəyib

## Əgər sanksiyalar davam edərsə, ölkədə narazılıq və mərkəzdənqaçma meyilləri güclənə bilər




**”Rusiya son zamanlar xarici siyasətində, xüsusilə də Cənubi Qafqaz, Suriya və Ukrayna siyasətində fəallıq göstərməyə çalışsa da, daxilində getdikcə gərginləşən vəziyyətin böyüməsinin qarşısını almağı bacarmır”.**

**Bu fikirləri ”Şərq”ə açıqlamasında politoloq Samir Hümbətov deyib.** Bir ay bundan öncə Tatarıstanla başlayan daxili fikir ayrılıqlarına diqqət çəkən politoloq bildirib ki, təkcə bir ərazi ilə prosesin başlanması mümkün olmur. Artıq yayılan məlumatlara əsasən Çeçenistan da tabeçilikdən uzaqlaşıb müstəqil addımlar atmaq niyyətini ortaya qoymağa başlayıb.

”Digər tərəfdən isə Rusiyaya qarşı tətbiq edilən sanksiyalar da onun xarici ticarətində ciddi problemlərin yaranmasına səbəb olur. Bu da birbaşa Rusiyanın daxili iqtisadi vəziyyətinə təsir göstərməkdədir. Bundan başqa iki ilə yaxındır davam edən ”Covid-19” pandemiyası nəticəsində Rusiya iqtisadiyyatına təqribən 100 milyard dollardan artıq ziyan dəyib ki, bu da iqtisadiyyatı sanksiyalar altında olan dövlət üçün kifayət qədər böyük rəqəmlər hesab edilir. Artıq Rusiya daxilində mövcud olan subyektlər vəziyyətin ciddiliyini anlamağa başladıqları görünməkdədir. Məhz buna görə də vəziyyətdən istifadə edərək özlərinin müstəqil davranışlarını müəyyənləşdirməyə çalışırlar”.

*S.Hümbətov onu da bildirdi ki, əgər pandemiya və Rusiya iqtisadiyyatına qarşı tətbiq edilən sanksiyalar uzun müddət davam edərsə, ən böyük təsir məhz Rusiya iqtisadiyyatına olacaq ki, nəticədə daxili narazılıq və mərkəzdənqaçma meyilləri güclənə bilər:* ”Bu da Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalının Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana verdiyi xəritənin reallaşmasını sürətləndirə bilər”.

**Aynurə Pənahqızı**

**Məlum olduğu kimi, noyabrın 24-də Bakıda Prezident İlham Əliyevin Rusiya baş nazirinin müavini Aleksey Overçuk ilə görüşü olub. Görüşdə iki ölkə arasındakı gələcək planlar haqqında da fikir mübadiləsi aparılıb.**

Bəyan edilib ki, Azərbaycanla Ermənistan arasında nəqliyyat kommunikasiyalarının tezliklə açılması bölgədə sabitliyə və iqtisadi inkişafa öz töhfəsini verəcək. Tərəflər ikitərəfli münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın inkişafını təqdir edib. Vurğulanıb ki, bu il ticarət dövriyyəsi 7 faiz artıb. Görüşdə Rusiya şirkətlərinin Azərbaycanın azad edilmiş ərazilərində fəaliyyəti, ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu məsələləri də geniş müzakirə olunub. Əminlik ifadə edilib ki, Azərbaycan-Rusiya münasibətləri müxtəlif sahələrdə bundan sonra da uğurla inkişaf edəcək.

**İki ölkə arasındakı iqtisadi əməkdaşlıqla bağlı ”Şərq”ə danışan millət vəkili Vüqar Bayramov deyib ki, Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olmaqla yanaşı, eyni zamanda ölkəmizin qeyri-neft ixracatında da ən böyük partnyorudur.** Deputatın sözlərinə görə, 2 milyard dollarlıq qeyri-neft ixracatımızın təxminən 36 faizi Rusiyanın payına düşür: ”O baxımdan 2 ölkə arasında iqtisadi əlaqələr, xüsusən Azərbaycan məhsullarının Rusiyaya ixracı prosesi son illər xeyli genişlənib. Sözsüz ki, işğaldan azad edilmiş ərazilərimizdə fərqli ölkələrə məxsus şirkətlərin iştirakı nəzərdə tutulur. Artıq bir çox dövlətin nüfuzlu şirkətləri Qarabağda yenidənqurma və bərpa işlərində yaxından iştirak edirlər. Xüsusən, Türkiyə və İtaliya şirkətləri daha fəal rol oynayır. Yaxın günlərdə daha çox ölkədən şirkətin quruculuq prosesinə cəlb edilməsi, bərpa işlərinin intensiv hal alması praktik olaraq əsas hədəflərdəndir. O səbəbdən Rusiya şirkətlərinin də bərpa-quruculuq işlərində iştirakı mümkündür. Xüsusən, Zəngəzur dəhlizinin istifadəyə verilməsi fonunda gözlənilir ki, Rusiya və region arasında iqtisadi və ticari əlaqələrdə artım müşahidə olunacaq. Kommunikasiyaların bərpası və paralel olaraq dəhlizlərin istifadəyə verilməsi həm də Rusiya ilə Azərbaycan, o cümlədən bölgənin digər dövlətləri arasında ticarət dövriyyəsinin genişlənməsinə gətirib çıxaracaq”.



# Rusiya qeyri-neft ixracatında ən böyük partnyorumuzdur

## Deputatın sözlərinə görə, 2 milyard dollarlıq qeyri-neft ixracatımızın təxminən 36 faizi Rusiyanın payına düşür

**İsmayıl Qocayev**



# “Problem daha yaxşı istiqamətə yönəlib"

## Bakı məktəblərində koronavirusla bağlı vəziyyət normallaşır

**”Məktəblərdə koronavirusa yoluxma halları ilə bağlı məsələ lokal şəkildə həll olunur”.**

Bunu Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva jurnalistlərə açıqlamasında deyib.

İdarə müdiri bildirib ki, harada ciddi problem varsa, Gigiyena və Epidemiologiya Mərkəzinin qərarı ilə həmin yerdə ya məktəb, ya da sinif distant təhsilə keçir: ”14 gündən, yəni karantin rejimi bitəndən sonra yenidən əyani tədrisə qaytarılır. Bir faktı xüsusi qeyd edim ki, problem yavaş-yavaş daha yaxşı istiqamətə yönəlib”.

M.Vəliyeva bəzi məktəblərdə idman zalları kiçik olduğundan dərslərin məktəbin həyətində keçirilməsi məsələsinə də münasibət bildirib: ”Mövcud problemlərin həlli proqramlaşdırılmış və təhlil olunmuş şəkildə həyata keçirilir. Növbəli şəkildə məktəblərin təmiri, infrastrukturunun yaxşılaşdırılması istiqamətində işlər aparılır”.

# Ermənistan Rusiya üzərindən Türkiyəyə əl uzadır

## Sultan Zahidov: “Ermənistanın hazırkı vəziyyəti bir növ bataqlıqda çapalayan və saman çöpündən yapışmağa çalışan insana bənzəyir”

**Ermənistan Türkiyə ilə münasibətlərin normallaşdırılmasında Rusiyadan vasitəçi olması üçün müraciət edib. Bununla bağlı həftəlik brifinqdə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova açıqlama verib.**

M.Zaxarova bildirib ki, Ermənistanın rəsmi Ankara ilə İrəvan arasında münasibətlərin qurulmasında vasitəçi olması üçün Rusiyaya müraciət etdiyini təsdiq edə bilər:

”Rusiya bunda maraqlıdır. Ermənistan-Türkiyə münasibətlərinin normallaşdırılmasına çalışıb. Ölkəmiz bundan sonra da bu məsələyə öz töhfəsini verməyə hazırdır. Bu prosesin başlanması şübhəsiz ki, regionda ümumi vəziyyətin sağlamlaşmasına, mehriban qonşuluq və etimad mühitinin yaranmasına öz ərməğanını verə bilər. Hazırda bu, aktualdır”. Həmçinin, 2022-ci il yanvarın 1-dən Ermənistan Türkiyə mallarının idxalına qoyulan qadağanı aradan qaldıracaq. Bəzi mətbu qaynaqların məlumatına görə, yaxın aylarda türk geyim, ayaqqabı, kosmetika və digər malların idxalına qoyulan qadağa götürüləcək. **Ermənistanın çabalarını ”Şərq”ə şərh edən beynəlxalq məsələlər üzrə mütəxəssis Sultan Zahidov qeyd edib ki, Ermənistanı belə qərar verməyə məcbur**



**edən müəyyən faktorlar var idi:** ”Ermənistanın hazırkı vəziyyəti bir növ bataqlıqda çapalayan və saman çöpündən yapışmağa çalışan insana bənzəyir. Bildiyimiz kimi Ermənistan uzun müddət aqressiv işğalçı siyasəti nəticəsində bölgədəki layihələrdən kənarda qalıb. Bu da onun sosial-iqtisadi vəziyyətinə ağır şəkildə təsir göstərib. Ermənistanın ümumi vəziyyətinə mənfi təsir edib. İkinci Qarabağ müharibəsində o acı məğlubiyyət Ermənistandakı durumu daha da uçuruma doğru aparıb. Sözsüz ki, bütün bunlardan sonra gözləmək olardı ki, Ermənistan düzgün addımlar atmağa başlayacaq. Bölgədə sülh və əmin-amanlıq üçün bir növ əlini uzatmış olacaq. Azərbaycan üçün əlini geri çevirməyəcək”.

**Mütəxəssis diqqətə çatdırıb ki, sosial-iqtisadi vəziyyətin ağırlaşması ilə yanaşı beynəlxalq təzyiqlər də Ermənistana təsirsiz ötüşmür:** ”İndiki vəziyyətdə Ermənistanın imici onsuz da çox aşağı səviyyədədir. Azərbaycanın sülh təklifi və ya Rusiyanın vasitəçiliyinə müsbət cavab verməməsi ilə statusu daha da neqativ nəticələnəcək. Digər amil Rusiyanın özünün də təzyiq göstərməsindən ibarətdir. Rusiya bildirir ki, qarantı olduğum üçtərəfli bəyanatın maddələri yerinə yetirilməlidir. Həmin maddələrdən biri də regiondakı kommunikasiya xətlərinin açılmasını nəzərdə tutur. Hazırda görürük ki, artıq Ermənistan rəhbərliyindən bu barədə etiraz doğurmayan çıxışlar səslənir. Bu, birdən-birə baş verəcək bir proses deyil. Çünki Ermənistanın daxili auditoriyası hələ buna hazır olmalıdır. Həmçinin 15 dekabrda Azərbaycan Prezidenti ilə Ermənistan Baş naziri arasında baş tutacaq Brüssel görüşünü nəzərə alsaq, bununla bağlı müsbət addımların artıq atıldığının şahidi oluruq”.

**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

Aynurə Pənahqızı



# "Təhsil kreditlərini almaq çətin olacaq"

## Kamran Əsədov: "Demək olar ki, heç bir güzəşt yoxdur və onu almaq əlçatan deyil"

**Bu il noyabrın 25-dən təhsil-tələbə krediti üçün müraciətlərin qəbuluna başlanılıb. Bu barədə ölkə ictimaiyyətinə Təhsil Nazirliyindən məlumat verilib. Təhsil-tələbə kreditinin ayrılmasında məqsəd təhsilin hamı, xüsusilə də əhalinin aztəminatlı təbəqələrindən olan şəxslər üçün əlçatanlığının təmin edilməsi, təhsildə bərabər imkanların yaradılması və təhsilin əhatə dairəsinin genişləndirilməsidir.**

Bu kredit dövlət dəstəyi ilə çox kiçik faizlərlə və uzun müddətə (təhsil səviyyəsindən asılı olaraq 15-22 il) verilir. Nazirlər Kabineti tərəfindən təsdiqlənmiş müvafiq qaydaya əsasən, təhsil tələbə kreditinin sosial və standart növləri mövcuddur. Sosial-təhsil tələbə kreditindən yalnız sosial həssas təbəqəyə aid ailələrin üzvü olan tələbələr istifadə edə biləcək və onlara kreditlər güzəştli şərtlərlə veriləcək. Təhsilin normativ müddətində, güzəşt və möhlət dövründə kreditə faiz hesablanmır və kreditin qaytarılması tələb olunmur. Kreditə görə faizlərin hesablanmasında və kreditin qaytarılmasında təhsilin nəticələrindən asılı olaraq güzəştlər tətbiq olunur. Tələbə krediti məzun olduqdan və güzəşt dövrü bitdikdən sonra qaytarır. Təhsil krediti üçün müraciət etmək istəyən tələbənin yaşı 18-dən aşağı olduqda valideynləri və ya himayəçisi ilə, yaşı 18-dən yuxarı olduqda isə özü notarial xidmətə yaxınlaşaraq bir sıra razılıqları ərizəsi ilə təsdiq etməlidir. Daha sonra tələbə kredit almaq hüququnun müəyyənləşdirilməsi üçün https://e-ttkf.edu.az/ portalına daxil olur. Portala giriş identifikasiya nömrəsi, asan imza və e-imza ilə mümkündür. Tələbənin kredit almaq hüququ elektron qaydada müəyyən edilir və kredit müvəkkil bank tərəfindən verilir. Bunun üçün kredit almaq hüququ olan tələbənin müraciət zamanı qeyd etdiyi smart telefon nömrəsinə bank tərəfindən SMS vasitəsilə müvafiq link və birdəfəlik şifrə (OTP) göndərilir. Tələbə linkə keçid etdikdən sonra müvafiq OTP şifrəni daxil edir və bu zaman müvəkkil bankın üz tanıma sistemi işə düşür və bu sistem vasitəsilə müştəri eyniləşdirilir. Müvafiq məlumatlar tələbə tərəfindən sistemdə təsdiq edildikdən sonra kredit müqaviləsi və kreditin sığorta müqaviləsi rəsmiləşdirilir, təhsil haqqı təhsil müəssisəsinə köçürülür. Tələbə-kreditin verilməsi ilə bağlı hər bir status dəyişikliyi barədə məlumatı SMS vasitəsi ilə izləyə bilir.

Bununla bağlı təhsil nazirinin müavini İdris İsayev brifinq keçirib. Brifinqdə çıxış edən təhsil nazirinin müavini İdris İsayev deyib ki, hazırda 60 ölkə bu sistemdən istifadə edir: "Bu, hər bir ölkədə fərqli qaydada həyata keçirilir, amma ümumi tələblər də mövcuddur. Kreditlər tələbəyə deyil, birbaşa təhsil müəssisəsinə köçürülür və sığortalanır. Təhsil-tələbə kreditlərinin verilməsində məqsədlərdən biri təhsilin əhatə dairəsini genişləndirməkdir. Yüksək bal toplayan bəzi tələbələr təhsil haqqı yüksək olduğu üçün qeydiyyata düşmür, bəziləri təhsillərini yarımçıq qoyurlar. Bu sistem təhsilə əlçatanlığın təmin edilməsinə xidmət edir. Tələbə-təhsil kreditləri əyani təhsil alan, Azərbaycan vətəndaşı olan tələbələrə veriləcək".

Nazir mavininin sözlərinə görə, təhsil-tələbə kreditləri semestr üzrə veriləcək, hər semestr üzrə müraciət olmalıdır: "Akademik borcu olanlar bundan yararlana bilməyəcək. Kredit yalnız Azərbaycan vətəndaşı olan tələbələrə veriləcək. Kreditin iki növü var. Bunlar standart və sosialdır. Sosial kreditlər sosial həssas qruplara veriləcək. Ünvanlı sosial yardım alan, 3-cü qrup əlillik təyinatı olan, valideynləri işsiz olanlar, 1 və 2-ci dərəcə əlilliyi olanlar, işsiz kimi qeydiyyatda olanlar, yaşa görə əmək pensiyası alanlar, yaşa görə sosial müavinət alanlar ala bilər. Bakalavriat üçün 300-700, magistratura üçün 50-100, subbakalavr üçün 110-300 bal aralığında olan şəxslər bundan yararlana biləcəklər. Qeyd edim ki, təhsil-tələbə kreditlərinin faizləri də açıqlanıb".

Onun sözlərinə görə, faizləri Təhsil Tələbə Krediti Fondunun Himayəçilik Şurası Təhsil Nazirliyi və Nazirlər Kabineti ilə razılaşdırılaraq müəyyən edib: "Sosial kreditlər 2 faizlə, standart kreditlər isə 6 faizlə veriləcək".

Nazir müavini qeyd edib ki, illik təhsil haqqını ödəyən tələbələr də müvafiq şərtlərə cavab verirlərsə, təhsil-tələbə kreditləri üçün müraciət edə bilərlər. O bildirib ki, bu halda tələbənin ödədiyi təhsil haqqı ona geri qaytarılır: "Artıq tədris prosesi başlayıb. Tələbələr təhsil haqqının müəyyən hissəsini ödəyiblər. Qaydalarda həmin tələbələrin də kredit üçün müraciət etməsi ilə bağlı məsələ əksini tapıb. Tələbələrin təhsil haqlarını ödəyib-ödəməməsindən asılı olmayaraq onlar kredit üçün müraciət edə bilərlər. Bu halda tələbə tərəfindən ödənilmiş təhsil haqqı ona geri qaytarılır".

İ.İsayevin sözlərinə görə, ikinci təhsil alan tələbələr də təhsil-tələbə kreditindən yararlana bilər: "Əgər tələbə əyani təhsil alırsa və daha əvvəlki təhsilində kredit götürməyibsə, təhsil-tələbə krediti üçün müraciət edə bilər".

**Təhsil kreditləri barədə "Şərq"ə danışan təhsil eksperti Kamran Əsədov bildirib ki, təhsil kreditlərinin verilməsinə başlanılsa da, lakin praktikada onu almaq prosedur qaydalarının çətinliyinə görə mümkün olmayacaq:** "Qeyd edim ki, dünyada 1960-cı illərdən tələbə kreditlərinin verilməsinə başlanılıb və hazırda 61 ölkədə tələbə kreditləri verilir. Amma ən çətin kredit verilmə şərtləri və prosedur qaydaları Azərbaycandadır. Demək olar ki, heç bir güzəşt yoxdur və onu almaq əlçatan deyil. Kreditin verilməsi şərtlərində bir-neçə ciddi nöqsanı qeyd edim. Tələb olunur ki, www.e-ttkf.edu.az portalı vasitəsi ilə müraciət etmək lazımdır. Bunun üçün isə "asan login"a malik olmaq lazımdır. Bu portaldan qeydiyyatdan keçmək üçün isə müraciət edənin adına mobil nömrə olmalıdır. Lakin nəzərə alınmayıb ki, ölkədə 18 yaşından aşağı olan şəxslərə mobil nömrə satılmır. Hansı tələbənin, yəni kredit almaq üçün müraciət edənin adına mobil nömrə yoxdursa, o, sistemdə qeydiyyatdan keçə bilməz. Deməli, indi azı 60 min tələbə gedib yeni mobil nömrə almalıdır. Daha sonra, ümumi orta təhsil bazasından kollecə qəbul olan tələbənin 15 yaşı varsa, o, öz adına necə nömrə ala bilər? Mobil operatorlar yalnız valideynlərinin birinin notarial təsdiq edilmiş razılığından sonra 18 yaşından aşağı şəxsə mobil nömrə satırlar. Bunlar isə əlavə xərc və vaxt deməkdir. İkincisi, şərtə görə www.e-ttkf.edu.az portalında müraciət etmək üçün notarial qaydada təsdiq edilən arayış alınmalıdır. Bunun üçün isə tələbələr dövlət rüsumu ödəməlidirlər. Axı niyə biz onları mobil nömrə və bir-neçə sənədi almaq üçün rüsum ödəməklə əlavə xərcə salırıq? Niyə bizim tələbələri qapı-qapı gəzməlidirlər? Məgər Təhsil Nazirliyinin elektron portalında hər tələbə barədə fərdi məlumatlar yoxdur? Üçüncüsü, fond tələb edir ki, kredit almaq üçün tələbənin minimum 300 balı olmalıdır. Bu, ciddi məhdudiyyətdir. Gəlin rəqəmlərə baxaq: I qrup üzrə 9866 abituriyent müsabiqə şərtini ödəyib və onlardan 7137 nəfər 300-dən çox bal toplayıb. Amma maraqlıdır ki, I qrupda 10112 dövlət sifarişli, yəni ödənişsiz plan yeri var. Bu o deməkdir ki, I qrupda abituriyentlər 200 balla hətta ödənişsiz ixtisaslara qəbul ola biliblər. II qrupda 5346 abituriyent müsabiqə şərtini ödəyib və onlardan 3568 nəfəri 300 balı keçib. Lakin burada da 4230 plan yeri dövlət sifarişli, yəni ödənişsiz ixtisas var və II qrup üzrə tələbələr 250 balla ödənişsiz ixtisaslara qəbul ola bilərlər. Bu o deməkdir ki, kredit almaq üçün əksər tələbələr müraciət edə bilməyəcəklər, çünki 300-dən yuxarı balları olsaydı, elə dövlət sifarişi olan ixtisaslara qəbul olardılar, yəni 300-dən aşağı balı olanlar elə ödənişli əsaslarla təhsil almağa məcbur olublar".

**Təhsil eksperti bildirib ki, təklif edilən kredit faizləri həddsiz dərəcədə yüksəkdir:** "Standart kredit üçün 6 faiz tələb edilməsi kreditin əlçatanlığına ciddi maneədir. Bu, sonda verilən məbləğin iki dəfədən çox qaytarılması ilə nəticələnəcək. Bu amil də kredit götürülməsi üçün müraciətləri azaldacaq. Kredit üçün yalnız əyani təhsil alanlar müraciət edə bilər, qiyabi təhsil alan tələbələr müraciət edə bilməzlər. Qiyabi təhsil alan tələbələrin əksəriyyəti heç bir yerdə işləmirlər. Məgər heç olmazsa, işsiz tələbələrə kredit vermək olmazdı? Tələb olunur ki, tələbənin akademik borcu olmasın və onların ümumi orta müvəffəqiyyət göstəricisi 71 baldan yüksək olsun. Hazırda ölkədə 126 min tələbə özü təhsil haqqını ödəyir. Amma onların hamısı müraciət edə bilməyəcək, yalnız 56 min tələbənin müraciət etmək imkanı olacaq. Çünki digərlərinin akademik borcları - kəsrləri var, ya da akademik göstəriciləri 71 baldan aşağıdır. Tələbənin kəsrinin olması normal bir şeydir. Təbii ki, bu tələbələr yüksək elmi potensiala malik olsaydılar, ödənişli əsaslarla təhsil almazdılar. Avropa ölkələri və ABŞ, postsovet məkanından isə Rusiya, Ukrayna, Belarus, Qazaxıstan və Özbəkistan təhsil kreditləşməsini tətbiq edirlər. Məsələn, ABŞ-da bununla Federal Agentlik məşğul olur. Agentliyin çox böyük dövriyyəsi var. Kreditlər 3 növdür: federal tələbə krediti, valideyn krediti və özəl kredit. Hər biri müxtəlif qruplara və şərtlərlə verilir, faizlər çox aşağıdır. Dövlət yaxşı oxuyan tələbələr üçün bir sıra başqa güzəştlər də tətbiq edir. Bəzi ştatlarda təhsildə, elmdə yüksək nəticə əldə edən tələbələrə o kreditlər bağışlanır. Analoji qurumlar Almaniyada, Fransada, Böyük Britaniyada, Şərqi Avropa ölkələrində də var. Kreditlərin mənbəyi kimi adətən dövlət resursları çıxış edir, amma dövlətin stimullaşdırdığı özəl fondlar, banklar da bu prosesdə iştirak edə bilir. Həmçinin universitetlərin özləri də kredit ayırırlar. Əksər ölkələrdə faizlər çox aşağı, müddət uzun olduğu üçün kreditlərin qaytarılmasında çətinlik yaranmır. Adətən kreditin qaytarılmasına universiteti bitirdikdən 2 il sonra başlanılır, 5-10 ilə, bəzənsə 30 ilədək müddətdə qaytarılır".

Ekspertin sözlərinə görə, bütün dünyada təhsilin inkişaf etdirilməsində bu kreditlər böyük rol oynayır: "Müsəlman ölkələrindən İndoneziya və Türkiyədə məhdud da olsa təhsil kreditləşməsi tətbiq olunmağa başlayıb. Avstraliyada təhsil kreditləri faizsiz verilir. Bəzi ölkələrdə isə kredit faizləri yalnız texniki xərcləri örtəcək həcmdə, yəni 1-2 faizdir. Ümumiyyətlə, mövcud şərtlərlə verilən tələbə kreditləri ölkə konstitusiyanın tələblərinə ziddir. Konstitusiyaya görə, maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir. Qısası, biz tələbələrə kreditin verilməməsi üçün bütün imkanları səfərbər etmişik".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# "Paşinyan Zəngəzur dəhlizindən öz məqsədləri üçün istifadə etməyə çalışır"

## Sərdar Cəlaloğlu: "Rəsmi İrəvan orda məntəqə qurub gəlir götürmək istəyir"

**Noyabrın 26-da Rusiyanın Soçi şəhərində Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin, Ermənistanın Baş naziri Nikol Paşinyanın görüşü keçiriləcək. Soçi görüşü öncəsi Ermənistan baş naziri Zəngəzur dəhlizi ilə bağlı əsassız, heç bir tarixi fakta söykənməyən fikirlər səsləndirib.**

N.Paşinyan noyabrın 23-də keçirilən mətbuat konfransında deyib: "Azərbaycan aşkar şəkildə Ermənistana qarşı ərazi iddiaları nümayiş etdirir. "Zəngəzur dəhlizi" və ya "Şərqi Zəngəzur" nə deməkdir? Bu terminləri kim uydurub? Bunların mənası nədir və dəhliz məntiqi nə deməkdir? Biz əvvəllər də bəyan etmişik və yenə də bəyan edirik ki, məsələləri dəhliz məntiqində müzakirə etməmişik, etmirik və etməyəcəyik". Paşinyanın sözlərinə görə, bu, Ermənistanın hər hansı bir şəkildə regional kommunikasiyaların açılmasından imtina etməsi demək deyildir. Halbuki, Azərbaycanda hazırda Zəngəzur dəhlizinin fəaliyyəti istiqamətində fəal işlər aparılır, bir çox təkliflər var, artıq bir çox nəqliyyat-kommunikasiya layihələri masa üzərindədir, müzakirə edilir. Prezident İlham Əliyevin dediyi kimi, bu, Azərbaycanın növbəti tarixi uğuru olacaqdır. Zəngilan Şərqi Zəngəzur bölgəsində yerləşir və buradan keçən Zəngəzur dəhlizi bütün türk dünyasını birləşdirəcək. Lakin N.Paşinyan dəhlizin açılmasını istəmir.

Qeyd edək ki, İlham Əliyev Zəngəzur dəhlizi məsələsinin 10 noyabr tarixli Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin imzaladıqları Üçtərəfli Bəyanata salınmasını "tarixi nailiyyət" adlandırıb.

**Mövcud durumu "Şərq"ə şərh edən Azərbaycan Demokratik Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu vurğulayıb ki, N.Paşinyan Zəngəzur dəhlizindən öz məqsədləri üçün istifadə etməyə çalışır:** "Paşinyan həm dəhlizdən söhbət gedə bilməz deyir, həm də Ermənistanın kommunikasiyaların açılmasından imtina etmədiyini dilə gətirir.

Zəngəzur da kommunikasiya xəttidir. O, beynəlxalq hüquqda "dəhliz" anlayışı olmadığını söyləyir. Onda Laçın dəhlizi də olmayacaq.

Əgər Zəngəzur dəhlizi açılsa, ona Azərbaycan nəzarət edəcək. Dəhliz açıldığı təqdirdə, nəhəng ticarət dövriyyəsi reallaşacaq. Rəsmi İrəvan isə orda məntəqə qurub gəlir götürmək istəyir.

Laçın dəhlizindən Azərbaycana ciddi xeyir gəlməyəcək deyə, fərq etmir. Amma Türkiyədən Çinə qədər əksər ölkənin istifadə edə biləcəyi dəhlizdə gömrük sərhəd-xidmətinə nəzarət milyardlarla pul deməkdir.

Ermənistan da dəhlizin yol olmasını və gömrük xidmətindən gəlir əldə etməyi arzulayır".

**Aygün Tahir**

# AMEA artıq "can vermək" üzrədir

## Cümşüd Nuriyev: "Vaxtı ilə ziyalı ocağı, elm məbədi sayılan Akademiya son illərdə didişmələrin, qarşıdurmaların, münaqişələrin meydanına çevrilib"

**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyev qurumda aparılan yoxlamalar nəticəsində meydana çıxan acınacaqlı mənzərəyə görə AMEA-nın İşlər İdarəsinin sabiq müdiri Fətəli Abdullayevi suçlayıb. Akademik vurğulayıb ki, yoxlamalar nəticəsində ortaya çıxan nöqsanlara görə, məhz Fətəli Abdullayev ciddi məsuliyyət daşıyır.**



*"AMEA-nın yenidən canlanmasına böyük ehtiyac var. Akademiyadan küsüb xaricə gedən dəyərli alimlərimiz var. Onları yenidən elmi fəaliyyətə cəlb etmək lazımdır"*

Ramiz Mehdiyev qurumun elmi-tədqiqat müəssisələrində son vaxtlar aparılan yoxlamalar zamanı aşkarlanan ciddi qanun pozuntularını, korrupsiya faktlarını və idarəetmədə hökm sürən hərcmərcliyi də kəskin tənqid edib. Qarşıya çıxan problemlərin tezliklə həllinin vacibliyini vurğulayıb. Həmçinin, alimlərin sırf elmi işlərlə məşğul olmaları üçün zəruri addımların atılacağını diqqətə çatdırıb. Akademiyanın İşlər İdarəsinin sabiq müdiri Fətəli Abdullayev Ramiz Mehdiyevin ittihamlarını cavabsız qoymayıb. O, akademikin iddialarından təəssüfləndiyini bildirib: "Azərbaycan Milli Elmlər Akademiyasının nüfuzuna xələl gətirəcək hər hansı məsələnin ictimailəşməsinin qəti əleyhinəyəm. Qaldı konkret şəxsimlə bağlı səsləndirilən fikirlərə, yaşını və vəzifəsini nəzərə alaraq çox təəssüfləndiyimi bildirirəm. Onu da xatırlatmaq istərdim ki, mən artıq 2 ildir AMEA-da çalışmıram". Xatırladaq ki, xeyli vaxtdır Hesablama Palatası və Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi AMEA-nın müxtəlif strukturlarında yoxlamalar həyata keçirir. Qurum tərəfindən verilən açıqlamalara görə, yoxlamalar nəticəsində ortaya çıxan qüsurlar əsasən idarəçilik və maliyyə-təsərrüfat fəaliyyətilə bağlıdır.

**Akademiyadakı mövcud durumu "Şərq"ə dəyərləndirən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev baş verənlərə təəssüf etdiyini deyib. Professor bildirib ki, elm ocağımız, məbədimiz AMEA sayılır:** "Vaxtı ilə bu qurumda ölkəmizi dünya miqyasında tanıdan ləyaqətli alimlərimiz çalışıb. Təəssüf ki, son zamanlar, hələ Ramiz Mehdiyevdən də öncə Akademiya ilə bağlı ciddi ittihamlar gündəmə gəlməkdədir. Akademikə münasibətim birmənalı deyil. Amma AMEA lap əvvəldən, elə Akif Əlizadənin zamanında pis günə qalmışdı. Akademiyada alver-ticarət məsələsi məhz onun vaxtında gündəmə çıxmışdı. Bir elm ocağı düşünün ki, orada hər şey sözün həqiqi mənasında satılır. İndi R.Mehdiyevdən sonra qurumda yoxlamaların getdiyi deyilir. Hesab edirəm ki, AMEA artıq "can vermək" üzrədir. Vaxtı ilə ziyalı ocağı, elm məbədi sayılan Akademiya son illərdə didişmələrin, qarşıdurmaların, münaqişələrin meydanına çevrilib. Əsl elm adamları qalıb bir tərəfdə, hanısa yollarla "diplom" almış "alimlər" ölkədə elmimizə yol verirlər".

**C.Nuriyevin sözlərinə görə, əgər Ramiz Mehdiyev həqiqətən Akademiyada islahat aparmaq, elm ocağının öz missiyasına uyğun fəaliyyətini təmin etmək istəyirsə, çox ciddi addımlar atmalıdır:** "AMEA-da bir-birini təkrarlayan qurumlar ləğv edilməlidir. Eyni zamanda elm haqqında ümumi milli konsepsiya hazırlanmalı, müasir dövrlə uyğunlaşmalıdır. İnsan resurslarının kapitala çevrildiyi vaxtda bu məsələyə daha çox diqqət yetirilməlidir. AMEA-nın yenidən canlanmasına böyük ehtiyac var. Akademiyadan küsüb xaricə gedən dəyərli alimlərimiz var. Onları yenidən elmi fəaliyyətə cəlb etmək lazımdır. Akademiyaya yeni nəfəs, can lazımdır. AMEA-da rüşvət, qanunsuzluqlar aradan qaldırılmalıdır. Bunu da küsüb getmiş əsl elm xadimlərinin əli ilə etmək mümkündür. Dünyaya açılmaq imkanlarımız yetərincədir, sadəcə, bundan düzgün istifadə etməyi bacarmalıyıq".

**İsmayıl Qocayev**

# Axır ki, tələbələr sevinəcək...

## Tələbə yataqxanalarının bərpasına və tikintisinə başlanır



### Bu, həm də kirayə haqlarının aşağı düşməsinə səbəb olacaq

**Bakı Dövlət Universitetinin yeni yataqxanalarının tikilməsi üzərində iş gedir. Bununla bağlı dövlət-özəl tərəfdaşlığı əsasında hər həftə müzakirələr aparılır. Bunu jurnalistlərə açıqlamasında Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev deyib.**

Universitetin yeni tikilən 225 nəfərlik yataqxanasının əsaslı şəkildə təmir olunduğunu deyən rektor qeyd edib ki, yataqxana tələbələr üçün lazımi vəsaitlərlə təmin olunub: "BDU-nun əvvəlki tələbə şəhərciyində xoşagəlməz vəziyyət var idi. Oranı hasarladıq və indi ərazi xüsusi mühafizə altındadır, kənar şəxslərin girişi mümkün deyil".

Tələbələrin yataqxana problemi həllini tapırsa, əlbəttə, bu sevindirici haldır. İllərdir ki, xüsusən də Ermənistanın Azərbaycan ərazilərini işğalı nəticəsində yurd-yuvasından didərgin düşmüş soydaşlarımızın böyük bir hissəsi paytaxtdakı yataqxanalarda, o cümlədən tələbə yataqxanalarında məskunlaşmışdı. Son illərdə aparılan dövlət siyasəti həm də məcburi köçkünlər üçün yeni qəsəbələrin salınmasını əhatə edirdi. Ayrı-ayrı müəssisələr, ali məktəblərə məxsus yataqxanalar getdikcə boşaldılır, müvəqqəti sakinlər yeni mənzillərlə təmin edilirdi. Bununla belə yataqxanalar hələ də öz həqiqi sakinlərinə qapılarını açmayıb. Hətta yenilənən, abadlaşdırılan yataqxanalar var ki, onlar da tələbə qəbulunu hələ ki həyata keçirmir. Bu isə məlumdur ki, tələbələrə sıxıntı yaradır. Bölgələrdən paytaxta ali təhsil ardınca gələn gənclər mənzil kirayələməyə məcbur olur. Və maddi çətinliklərlə üzləşirlər. BDU rektorunun tələbə yataqxanaları ilə bağlı açıqlamasını tələbələr çoxdan gözləyirdi.

**Təhsil eksperti Elşən Ramizoğlu "Şərq"ə açıqlamasında bildirdi ki, müşahidələr tələbə yataqxanalarının heç də xoşagələn vəziyyətdə olmadığını göstərirdi:**

- Əlbəttə, çox sevindiricidir ki, tələbə yataqxanalarının təyinatına görə istifadəsi üçün işlər gedir. Əvvəlki illərlə bu günü müqayisə etdikdə, artıq görürük ki, bu istiqamətdə işlər sürətlənib. Tələbə yataqxanasının olması, kirayə haqlarının da aşağı düşməsinə səbəb olacaq. Tələbələr üçün ev, kirayə problemi həmişə olub. Lakin yataqxanalar bu vəziyyəti yüngülləşdirə bilər. Bu gün yataqxananın yenidən təmiri, özü də müasir avadanlıqlarla təmin olunması çox yaxşıdır. Bakı Dövlət Universiteti kimi bir ali məktəbin indiyə qədər yataqxanasının arzuolunmaz səviyyədə qalması məyusedici hal idi. Şükür ki, bu vəziyyət artıq düzəlir. Digər böyük universitetlərdə də yataqxanalarla bağlı kardinal dəyişikliklərin olması vacibdir. Tələbə yataqxanası varsa, valideyn də rahat olur ki, ümumi bir nəzarət vardır. Tələbələrin özü üçün də yataqxana daha rahatdır. Həm maddi baxımdan, həm də sosiallaşma baxımından.

**Məlahət Rzayeva**

# "Rüsumların artırılması ciddi maliyyə yükü yaradır"

## Rəşad Həsənov: "Əhalinin gəlirləri sürətlə inflyasiya fonunda dəyərsizləşir"

**Ölkədə rüsumların artırılması ilə bağlı ciddi narazılıqlar var. Ötən gün keçirilən parlament iclasında "Dövlət rüsumu haqqında" qanuna dəyişiklik layihəsi II oxunuşda müzakirə zamanı cəmiyyəti narahat edən bəzi məqamlar ortaya çıxıb. Diskussiya zamanı deputat Sabir Rüstəmxanlı bildirib ki, bu gün Azərbaycan cəmiyyətini rüsum və cərimələrlə bağlı məsələlər narahat edir:**

"Artırılan cərimələr insanların əməkhaqqı, pensiyası ilə uyğun gəlirmi?

Bu şəkildə olmaz. Biz nəyə səs veririk? Bu, insanları narahat edir. Çölə çıxanda maskanı unudursan, dərhal cərimə yazırlar. Rüsumların artırılması ilə bağlı ciddi narazılıqlar var. Cəmiyyətin böyük bir hissəsinin əsəbləri ilə oynayırıq. Buna cavab verilməlidir".

**Rüsumların artırılmasından yaranan etirazları "Şərq"ə danışan iqtisadçı-ekspert Rəşad Həsənov diqqətə çatdırıb ki, qiymət artımının səbəbi kimi indiki şərtlər daxilində yalnız bir məqam gündəmə gələ bilər:**

"O da həmin xidmətin istehsalı, göstərilməsi ilə bağlı xərclərin artmasıdır. Son dövrlərdə faktiki olaraq elektronlaşma, digital texnologiyaların tətbiqi sürətlə davam edir. Hökumət əmək qüvvəsinə qənaət üçün kifayət qədər imkanlar yaradıb. Belə şərtlər daxilində düşünmürəm ki, dövlət qurumları tərəfindən göstərilən xidmətlərin maya dəyərində artım olsun".



*İqtisadçı onu da əlavə edib ki, hazırda faktiki olaraq pandemiyadan əziyyət çəkən, yoxsullaşan bir cəmiyyətlə üz-üzəyik:* "Əhalinin gəlirləri sürətlə inflyasiya fonunda dəyərsizləşir. Sahibkarlar əvvəlki kimi əməkhaqqı fondunu istədiyi qədər artıra bilmir. Belə bir şəraitdə rüsumların artırılması ciddi maliyyə yükü yaradır. Ailə büdcələrinin qeyri-səmərəli istifadəsi imkanları daha da məhdudlaşdırır.

Həmçinin bu, əlavə xərc yükü kimi dolayısı ilə biznesmen tərəfindən təqdim olunan xidmətlərin də üzərinə əlavə olunacaq. Yəni o istiqamətdə də müəyyən qədər inflyasiya artımlarını şərtləndirəcək.

Hökumətin bu gün biznesə hansısa müdaxilə imkanı yoxdur. Hökumət kiməsə əmək haqqını artırmaqla bağlı göstəriş verə bilməz. Bu, bazarda tələb və təklifdən asılıdır.

Qiymətlərin, rüsumların artırılması ilə bağlı qərarların qəbulu doğru yanaşma deyil".

**Sücayət Mehti**

# Böyük faciə yaşana bilərdi

## 5-ci sinif şagirdini qaçıran "Mitsubishi"nin sürücüsü axtarılır



**Bakının Sabunçu rayonunda azyaşlı qız məktəbdən çıxarkən onu naməlum şəxs avtomobilinə zorla itələyərək bıçaqla hədələyib.**

Hadisə Mehdiabad qəsəbəsinin Umudvar Əliyev küçəsində qeydə alınıb. Əjdər Hüseynov adlı şəxs APA-nın qaynar xəttinə müraciət edərək bildirib ki, ötən gün 18 radələrində nəvəsi Z.Q 188 saylı tam orta məktəbdən çıxıb qardaşını axtararkən naməlum şəxs onu zorla avtomobilə mindirərək ərazidən uzaqlaşıb. APA-nın müxbiri baş vermiş hadisə ilə bağlı məktəblinin yaşadığı ünvanda olub. Z.Q sözügedən məktəbin beşinci sinif şagirdidir. Azyaşlının nənəsi Mədinə Hüseynova bildirib ki, hər iki nəvəsi məktəbdə ikinci növbədə təhsil alır. Z.Q dərs bitdikdən sonra qardaşını axtarmaq məqsədilə çölə çıxıb. Naməlum şəxs onu ağ avtomobilə mindirib.

### Novella Cəfəroğlu bildirib ki, məktəblərin güclü mühafizəsinə ehtiyac var

Lakin bir neçə yüz metr getdikdən sonra uşaq avtomobildən düşərək qaçıb. Z.Q-nın bildirdiyinə görə, ona bıçaqla hədə-qorxu gələn şəxs onu "Mitsubishi" markalı avtomobilə əyləşdirərək maşından düşməməyi tapşırıb. Deyib ki, özünü onun qızı kimi aparsın. Bir neçə yüz metr gedəndən sonra sürücü ətrafdan keçənlərdən Zabrat istiqamətinə yolu soruşub. Bu zaman Z yolda sinif yoldaşının valideyni ilə birlikdə evə getdiyini görüb. Uşaq dərhal maşından düşərək həmin valideynin yanına qaçıb. Avtomobili idarə edən naməlum şəxs ərazidən uzaqlaşıb. Faktı Sabunçu Rayon Polis İdarəsinin 15-ci Polis Bölməsinin əməkdaşları araşdırır. Qeyd edək ki, məktəbin ön kamerası işləmir. Lakin küçədə olan müşahidə kameralarından aydın olub ki, Z-nı ağ rəngli "Mitsubishi" markalı nəqliyyat vasitəsini idarə edən sürücü qaçırıb.

**Məlum olayı "Şərq"ə dəyərləndirən hüquq müdafiəşisi Novella Cəfəroğlu bildirib ki, məktəblərin güclü mühafizəsinə ehtiyac var. Ekspert qeyd edib ki, bu gün orta məktəblərdə mühafizə çox zəifdir:**

"Bizim vaxtımızda Komsomol, pioner var idi. Ancaq indi onların yerinə biz heç nə gətirməmişik. Məktəblərdə uşaqları başlı-başlına buraxıblar. Uşaqlar məktəblərdə biri-birləri ilə ünsiyyətdə olmalıdırlar, danışmalıdırlar. Uşaqlar məktəblərdə bir-birini yaxşı tanımalıdır ki, belə hadisələrdə bir-birini qoruya bilsinlər. Sözsüz ki, Daxili İşlər Nazirliyi bu məsələni axıra kimi yoxlamalıdır".

**Aynurə Pənahqızı**

# "Maraq axtarırdım, darıxırdım"

## Müğənni Nəfəsin paylaşdığı şəkilə görə, nəfəsini kəsdilər



**Müğənni Nəfəsin paylaşdığı foto müzakirələrə səbəb olub.**

"Şərq" xəbər verir ki, bu barədə "Həmin Zaur" verilişində də bu mövzuda çox danışılıb.

Verilişin aparıcısı Zaur Kamal müğənninin alış-veriş səbətində çəkdirdiyi fotosuna münasibəti belə olub:

"Camaat bağda, aranda, dağda, çay kənarında şəkil çəkdirir. Bu isə gör harda şəkil çəkdirir. Hansı ağılla, nə düşüncəylə şəkil çəkdirmisən?".

Müğənni Nəfəs isə aparıcıya cavabında deyib ki, həmin günü çox əylənib: "O vaxt Moskvada idim. Karantinə görə orda qalmalı oldum. Maraq axtarırdım, darıxırdım. Rəfiqəmlə alış-verişə getmişdim. Şəkil bir az səs-küy yaratdı. Amma yenə də çox əylənmişdim".

**Aygün Tahir**

# Afətə avtomobil hədiyyə ediblər

## Müğənni hədiyyəni Rusiyadan ölkəyə necə gətirəcəyi üzərində düşünür



**Müğənni Afət Fərmanqızıya avtomobil hədiyyə ediblər.**

"Şərq" məlumatına görə, bu barədə "Həmin Zaur" verilişində müğənninin səs yazısı yayımlanıb.

A.Fərmanqızı səs yazısında ona bağışlanan "Range Rower" markalı avtomobildən danışıb:

"Rusiyada gürcüstanlı iş adamı var. Adını hələ açıqlamıram. Mənim bir mahnıma görə gözəl, bahalı maşın hədiyyə edib. Bu avtomobili Azərbaycana necə aparacağımı düşünürəm".

*Qeyd edək ki, 2019-cu ildə də Rusiyada yaşayan iş adamı müğənni Afət Fərmanqızıya "Gelandewagen" markalı avtomobil hədiyyə edib.*

**Aygün Tahir**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2432




## Körpə qırmızı xalla doğulmuşdu

Sonda cərrahi əməliyyatla onun canını bu xaldan xilas ediblər



**2008-ci ilin sentyabr ayında Lloyd ailəsində Konni adlı qız uşağı dünyaya gəlib. Onun burnundakı qırmızı xal körpəni digərlərindən fərqləndirib. Bu ləkə ana bətnində 32 həftəlik embrionun USM müayinəsi zamanı da görünüb.**

"Şərq" big.az-a istinadən xəbər verir ki, belə ki, Konniyə gemangioma diaqnozu qoyulub. Bir neçə ilə ləkənin sovrulub keçəcəyi deyilsə də, 3 yaşına çatdıqda qızın xalı, müalicələrə baxmayaraq, böyüyərək bütün burnunu örtmüş olub. Bu, onun valideynləri Zara və Tomu narahat etməyə başlayıb. Ətrafdakılar uşağı təlxəyə bənzətdikləri üçün Konni çox qapalı və utancaq böyüyürdü. Valideynlər 3 il yaxşı mütəxəssis axtarışında olublar və sonda cərrahi əməliyyatla qızın canını bu xaldan xilas ediblər. Bu, uşağı daha şən və ünsiyyətçil edib. İndi həm özü, həm valideynləri xoşbəxtdirlər.

## Gözünə inanmadı

Hüseyn onu pulsuz aparan taksi sürücüsünə maşın verdi



**Rusiyada məşhurlaşan azərbaycanlı bloger Hüseyn Həsənov onu oulsuz aparan taksi sürücüsünə avtomobil hədiyyə edib.**

Axşam.az xəbər verir ki, Hüseyn dostu ilə Moskvada küçədə taksilərə yaxınlaşıb. O, pulqabısını götürmədiyini, təcili bir yerə çatmalı olduğunu söyləyib. Bir neçə sürücü bundan imtina etsə də, biri razılaşıb.

Yolboyunca özündən danışan sürücü Qırğızıstandan gəldiyini, borcları olduğunu, qızının əməliyyata ehtiyacı olduğunu söyləyib.

Ünvana çatan Hüseyn avtomobil satılan yerə girərək ona yeni maşın alıb. O, sürücünün pasportunu götürüb və maşını onun adına keçirərək, açarları təqdim edib.





# Həyatımızı dəyişəcək

Alimlər gördüklərinə inanmadı, bəşəriyyəti xilas edəcək hadisə baş verib



**"Waşinqton Post"un xəbərinə görə, tədqiqatçılar Sakit okeanın Avstraliya sahillərində apardıqları araşdırma zamanı bütün bəşəriyyəti maraqlandıracaq hadisə baş verdiyini həyəcanla bəyan edib.**

Mütəxəssislər "hələ də çox gec deyil, burda möhtəşəm bir mənzərə yaranıb", açıqlaması verir. Dalğıclar və alimlər, Avstraliyanın Böyük Sədd Rifində (bu, Avstraliyanın Kvinsled ştatının şimal-şərqində canlı orqanizmlərin yaşadığı nəhəng ərazidir. Burada delfinlər, köpək balıqları, tısbağalar və sair. Yanaşı 600 növdə bərk və yumşaq mərcanlar yaşayır) milyardlarla körpə mərcanların dünyaya gəlişinin bəşəriyyəti iqlim dəyişikliyi fəlakətindən xilas edəcəyinə ümid bəsləyir. Mərcanların yumurta qoyması yalnız ildə bir dəfə baş verir. Bu möhtəşəm hadisə və hadisənin yaratdığı rəngli görüntü görənləri heyrətə gətirib. Mərcanların dünyaya gəlişini izləyən dəniz bioloqu Gareth Phillips "burada vəziyyət yaxşılığa doğrudur, onları qorumağa davam etməliyik", söyləyib. Böyük Sədd Rifi bir neçə il öncə qlobal istiləşmə səbəbindən böyük zərər görmüşdü. Su istiləşdikcə mərcanlar birgə yaşadıqları alqları əhatələrindən uzaqlaşdırır. Halbuki onlar mərcanların rəngli ortaqlarıdır. Rəngli ortaqlar yox olduqdan sonra isə mərcanlar acından ölürlər. Sualtı ekosistem də beləcə pozulmağa başlayır. Phillips isə "Hər kəsi resifi və az öncə şahidlik etdiyimiz hadisəni görməyə dəvət edirəm. Bu, həyatımızı dəyişəcək", deyib. Mütəxəssislər sualtı ekosistemin pozulması xəbərdarlığı ilə yanaşı, bu sistemin özünü bərpa edə biləcəyini də söyləyir. Mərcanların dünyaya gəlişi məhz belə bir geri dönüşümdür. Phillips "bu gördüklərimiz qlobal iqlim dəyişikliyinin qarşısını almaq üçün hələ də çox gec olmadığına işarədir. Bundan gec olmadan faydalanmalıyıq", söyləyib.

**Məlahət**



## Zooparkda iki şir koronavirusa yoluxub

**Xorvatiyanın paytaxtında zooparkda iki şirdə COVID-19 aşkarlanıb.**

**Bu barədə jurnalistlərə Kənd Təsərrüfatı Nazirliyindən məlumat verilib. Məlumata görə, şirlərdə koronavirusun olması laboratoriya müayinələri nəticəsində təsdiqlənib. Qeyd olunur ki, bu, Xorvatiyada heyvanlarda COVID-19 aşkarlanması ilə bağlı ilk hadisədir. Analizlər COVID-19-la bağlı heyvan monitorinqi proqramı çərçivəsində aparılıb.**

## İki evini 1,5 milyona satdı

O, ailəsi ilə birgə 189 kvadratmetrlik evə köçüb



**Tanınmış müğənni Gülşen növbəti dəfə daşınmaz əmlakları ilə gündəmə gəlib.**

**Belə ki, sənətçi "Zorlu Center"dəki iki mənzilini 1,5 milyon TL-yə satıb.**

**"Olay" xəbər verir ki, Gülşen ailəsi ilə birgə 189 kvadratmetrlik evə köçüb.**

***Qeyd edək ki, sənətçinin Barselonada da evi var. Onun bir müddət əvvəl "Zorlu Center"də üçüncü mənzilini alması ilə bağlı xəbərlər yayılıb.***

# Yer yerindən oynadı



Tələbə filmi ölkəsinə gətirib yaydığına görə güllələnəcək

**Bu dəhşətli xəbər Şimali Koreyadandır. Lisey tələbəsi Çindən qayıdarkən özüylə Cənubi Koreya istehsalı "Squid Game" dizisinin diskini gətirib və tələbə yoldaşları ilə birlikdə izləyiblər. "Dörd göz" Ş.Koreya məxfi xidmət orqanları bundan xəbər tutub. Dizinin yayılması təbii ki, gözlərindən qaçmayıb.**

Tələbə həbs edilib, barəsində güllələnmə qərarı çıxarılıb, dizini onunla birlikdə izləmiş tələbələrə isə müxtəlif müddətlərə - 5 ildən ömürlük həbsə qədər azadlıqdan məhrumetmə cəzası kəsilib. Tələbənin adıçəkilən dizinin disklərini kopyalayaraq bir çox insana satdığı da məlum olub. Dizi disklərini satın alanlar arasında tələbə yoldaşları da olub. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, tələbənin edamı məhz həmin dizidəki epizodlardan birində yer alan güllələnmə səhnəsində olduğu kimi icra ediləcək - tələbə güllələnərək öldürüləcək. Dünyanın ən qapalı ölkəsi hesab edilən Şimali Koreyada Cənubi Koreyadan, həmçinin Qərb ölkələrindən hər hansı film, dizi, mahnı, musiqi disklərinin gətirilməsi, yayılması qadağandır. Məxfi xidmət orqanı bir neçə tələbəni həbs etməklə kifayətlənməyib. Bütün ölkə üzrə məktəblərdə, liseylərdə axtarışlar, təhqiqatlar başlayıb, şagirdlər, tələbələr tək-tək yoxlanır.

Ş.Koreya niyə bu dizini qadağan edib? Maraqlıdır ki, dizidə internetdə tez-tez qarşıya çıxan oyunlara bənzərlik




vardır. Dizidə gənclərə böyük məbləğdə pul mükafatı qarşılığında oyuna qatılmaq təklif edilir. Xeyli sayda gənc oyunlara qatılır. Lakin məlum olur ki, burada insan həyatı üçün böyük təhlükələr gizlənib. Həmçinin dizidə Cənubi Koreyanın gerçək siması, insanların mənfiliklərlə, problemlərlə dolu günlük həyatları əksini tapıb. Daha faciəlisi isə dizinin reallıqda bir gəncin ölümünə, bir neçəsinin həyatının qaralmasına səbəb olmasıdır. Həm də bu dəhşətli hadisə eyni kökdən gələn qardaş, amma bir-birinə düşmən kəsilmiş iki ölkədə - Şimali və Cənubi Koreyada baş verir.

**Məlahət Rzayeva**

## 11 milyon dollar qiyməti var

Şvartsneggerin evi satışa çıxarılıb

**Kaliforniyada vaxtı ilə amerikalı aktyor və ştatın keçmiş qubernatoru Arnold Şvartsneggerə məxsus olan ev satışa çıxarılıb. Hollivud ulduzunun həyat yoldaşı Mariya Şrayverlə birlikdə yaşadığı malikanənin qiyməti 11 milyon dollar (18.7 milyon manat) qiymətləndirilib.**

Oxu.az xəbər verir ki, Şvartsnegger və Şrayver evə 1986-2013-cü illərdə sahib olublar. Orada dörd uşaq böyüdüblər. Malikanə 2013-cü ildə ər-arvad boşandıqdan sonra satılıb. Alıcı 1963-cü ildə öldürülən ABŞ prezidenti Con Kennedinin qardaşı Robert Kennedi-




nin oğlu Maksvell Kennedi idi. Həmin vaxt sövdələşmə 12,9 milyon dollar (21,9 milyon manat) təşkil etmişdi.

İndi isə Kennedi və arvadı evi daha ucuz qiymətə satırlar.

388 metrlik kottec 1981-ci ildə tikilib və beş yataq otağı, altı vanna otağı, üç kamin, böyük mətbəx və qonaq otağı var. Həyətyanı ərazidə hovuz və tennis kortu var.

Bir çox Hollivud məşhurları, o cümlədən rejissor Stiven Spilberq, aktyorlar Tom Henks, Ben Afflek və Mett Deymon müxtəlif vaxtlarda qonşuluqda yaşayıblar.

## Məşhur cütlük açıqlaması verib

Birkan isə Eda ilə evlənməyə hazır



**"Masumlar Apartmanı" serialında Han rolunu ifa edən Birkan Sokullu ötən gecə sevgilisi Eda Gürkaynak ilə görüntülənib.**

Axşam.az xəbər verir ki, Arnavutköydə məkanların birindən çıxarkən cütlük evlilik planları ilə bağlı sualları cavablayıb.

Bu dəfə Eda Birkanı qabaqlayaraq mövzu ilə bağlı açıqlama verib. "Çox xoşbəxtik. Evlənməyə tələsmirik. Ailəm Birkanı çox sevir. Tez-tez bir araya gəlirik" - deyə, o, qeyd edib.

Birkan isə Eda ilə evlənməyə hazır olduğunu bildirib:

"Eda ilə enerjimiz çox uyğundur. Ailəsi ilə də çox yaxşı münasibətim var. Evliliklə bağlı hər hansı neqativ yanaşmam yoxdur. Bir gün Eda ilə evlənməyi qərara alsaq, bunu həyata keçirməkdən qaçmarıq".